


## 2022-ci ilin yeni sosial paketinin tərkib hissəsi

10

## Xorvatiyanın sabiq prezidenti: "Beynəlxalq hüquq Azərbaycanın tərəfindədir"



15

**Səs**

№ 239 (6439) **29 dekabr** 2021-ci il. **Qiymәti 40 qәpik**

# Prezident İlham Əliyev

## MDB dövlət başçılarının qeyri-rəsmi görüşündə iştirak edib



2

## Şahmar Mövsümov: "Azərbaycanda koronavirusla bağlı vəziyyət sabitdir"



4

# Ronaldo - bütün zamanların ən yaxşı bombardiri!



Avropa Klubları Assosiasiyası (ECA) və Avropa Futbol Agentləri Assosiasiyasının (EFAA) təsis etdiyi "Globe Soccer Awards" versiyasına əsasən, Portuqaliya millisinin və "Mançester Yunayted"in futbolçusu Kriştiano Ronaldo bütün zamanların ən yaxşı bombardiri...

16



12

## "Böyük sülh sazişinə qədər Paşinyana inanmaq olmaz"

## İran Səfirliyi: "Xankəndi şəhərində iranlı idmançıların iştirakı qanunsuzdur"

Azərbaycanın Xankəndi şəhərində xüsusi idman yarışlarında bir neçə iranlının iştirak etməsi qanunsuzdur. SİA-nın məlumatına görə, bu, İranın Azərbaycandakı Səfirliyinin Azərbaycanın Xankəndi şəhərində xüsusi idman yarışlarının keçirilməsi ilə əlaqədar bəyanatında...

4






## Azərbaycanda pensiya yaşı azaldılacaq?

11

Pensiya yaşı. Əksəriyyətin bu yaşa çatmaq arzusu böyükdür. Hər kəs istəyir ki, illərdir çəkdiyi zəhmətin bəhrəsini...




## Yeni il bayramı: bazarlarda qiymətlər "nə deyir"?

6

Həm xoşbəxtlik, həm də tələskənlik dövründəyik, çünki bayram gəlir. Bayram birlik, sevdiklərimizlə bir araya gəlmək...

# Prezident İlham Əliyev

## MDB dövlət başçılarının qeyri-rəsmi görüşündə iştirak edib

**Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində MDB dövlət başçılarının qeyri-rəsmi görüşü keçirilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev görüşdə iştirak edib. Rusiya Prezidenti Vladimir Putin Azərbaycan Prezidenti İlham Əliyevi qarşılayıb. MDB dövlət başçıları birgə foto çəkdiriblər.**

Rusiya Prezidenti Vladimir Putin görüşdə çıxış edib. Sonra koronavirus pandemiyasına qarşı mübarizə məsələləri ətrafında fikir mübadiləsi aparılıb.








## "Azərbaycanı regionun lider dövlətinə çevirən Prezident"

*Əlcəzair mətbuatında Prezident İlham Əliyevə həsr olunmuş məqalə dərc edilib*

**Əlcəzairin geniş oxucu auditoriyasına malik olan "Əl Vəsat" və "Əl Hivar" nəşrlərində Azərbaycan Prezidenti İlham Əliyevin 60 illik yubileyi ilə əlaqədar məqalə dərc edilib.**



AZƏRTAC xəbər verir ki, ölkəmizin Əlcəzairdəki müvəqqəti işlər vəkili Rəfail Bağırovun müəllifi olduğu məqalədə dövlətimizin başçısının rəhbərliyi altında Azərbaycanın böyük iqtisadi tərəqqiyə nail olduğu, Müzəffər Ali Baş Komandan İlham Əliyevin komandanlığı ilə ən müasir silahlar və texnika ilə təchiz edilmiş Ordumuzun işğaldan azad etdiyi Qarabağda yenidən bayrağımızın dalğalandığı diqqətə çatdırılıb.

Müəllif qeyd edib ki, Azərbaycanı regionun lider dövlətinə çevirən Prezident İlham Əliyev, eyni zamanda, nəhəng transmilli enerji layihələrindən daxil olan maliyyə vəsaitlərini xalqın, o cümlədən erməni işğalı nəticəsində doğma evlərindən didərgin düşmüş məcburi köçkünlərin rifahının yaxşılaşdırılmasına yönəldib. Dahi siyasətçi Heydər Əliyevin vəsiyyətini yerinə yetirən dövlət başçısı ölkənin iqtisadi qüdrətinin artırılması istiqamətində ardıcıl tədbirlər görüb. Məhz onun liderliyi ilə Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum TANAP və TAP enerji, həmçinin Bakı-Tbilisi-Qars dəmiryolu layihələri uğurla başa çatdırılıb.

Məqalədə Prezident İlham Əliyevin uğurlu xarici siyasəti, 2011-ci ildə BMT Təhlükəsizlik Şurasının qeyr-daimi üzvü, 2019-cu ildə Qoşulmama Hərəkatının sədri seçilməsi, ərəb ölkələri ilə əlaqələrin inkişafı istiqamətində mühüm addımlar atması barədə məlumat verilib. Müəllif vurğulayıb ki, Azərbaycanın dövlət başçısı 44 günlük müharibə zamanı da böyük diplomatik məharət nümayiş etdirib, xarici televiziya kanallarına müsahibələrində ölkəmizin ədalətli mövqeyini və ərazi bütövlüyünün bərpası əzmini ifadə edib. Məhz bu diplomatik səylərin sayəsində Azərbaycanın üç rayonu - Ağdam, Kəlbəcər və Laçın heç bir döyüş əməliyyatı aparılmadan düşməndən azad olunub. Azərbaycan Prezidenti bu möhtəşəm Qələbə ilə xalqın qəlbini bir daha fəth edib, eyni zamanda, dünyanın ən nüfuzlu siyasətçiləri sırasında öz mövqeyini möhkəmləndirib.

## XİN: 728 nəfərin Rusiyadan quru yolla Azərbaycana gətirilməsi təmin edilib

Mövcud COVID-19 pandemiyası rejimi ilə əlaqədar ölkə üzrə vətəndaşların quru sərhəd keçidinə tətbiq edilən müvəqqəti məhdudiyyətlər səbəbindən, Rusiya Federasiyasının Azərbaycan Respublikası ilə dövlət sərhədinin Dağıstan Respublikası ərazisindən yerüstü sərhəd yolu ilə Azərbaycana gəlmək üçün toplaşan vətəndaşlarımız və soydaşlarımızın Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Operativ Qərargahın müvafiq tapşırığına və pandemiya şərtlərinə uyğun olaraq 2021-ci ilin 20-27 dekabr tarixlərində növbəti sərhəd buraxılışları təşkil edilib.

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, sərhəd buraxılışlarının həyata keçirilməsi üçün Xarici İşlər, Daxili İşlər və Fövqəladə Hallar nazirliklərinin əməkdaşlarından ibarət işçi heyət Rusiya Federasiyasının Dağıstan Respublikasında xidməti ezamiyyətdə olublar. İşçi heyətin üzvləri sərhədi keçmək üçün gözləyən 766 nəfər həmvətənlimizi qeydiyyata alıb, onlara zəruri konsulluq yardımını göstərib.

Rusiyanın yerli qurumları ilə əlaqələndirilmiş fəaliyyət nəticəsində Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən müəyyən edilmiş gündəlik kvotaya uyğun qeydiyyata alınmış 766 nəfərdən 728 şəxsin 2021-cil ilin 22-27 dekabr tarixlərində (6 sərhəd buraxılışı) Rusiya Federasiyası ilə Azərbaycan Respublikasının "Yaraq Qazmalar - Samur" dövlət sərhəd-keçid buraxılış məntəqəsindən Azərbaycan Respublikasına qrup halında keçidi təmin olunub.

Ümumilikdə 2021-ci ilin yanvarın 29-dan - dekabrın 27-dək qrup halında 35 sərhəd keçidi olmaqla 4217 həmvətənimizin təxliyəsi təmin edilib.

# Azərbaycan regionda yeni siyasi reallığın müəllifidir

## İlham Əliyev: "Dünya Azərbaycanlılarının Həmrəylik Günü soydaşlarımızın vətən sevgisini, dövlətimizə və azərbaycançılıq ideyalarına sədaqətini əks etdirir "



**Milli birliyimizin rəmzinə çevrilmiş 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününün hər il bütün soydaşlarımızın ən əziz bayramlarından biri kimi qeyd edilməsinə bir neçə gün qalıb. 31 dekabrda millətimizin varlığının, qüdrətinin mühüm günü olan Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününü keçirməklə, həm də yeni 2022-ci ili qarşılayırıq. Bu gün Azərbaycan türklərinin öz birliyinə doğru birinci uğurlu addımı atdığı gündür! Azərbaycan türkünün öz doğma yurdu Azərbaycanın birliyi uğrunda ilk açıq həmrəylik günüdür! Bu gün gələcək Azərbaycan birliyinin ilk carçısıdır!**

Təsadüfi deyil ki, 1991-ci ildən başlayaraq, ilk dəfə məhz Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə əvvəl Naxçıvanda, sonra isə bütün ölkə miqyasında hər il 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü kimi xüsusi qeyd edilir.

"Bizim vəzifəmiz, Azərbaycan dövlətinin vəzifəsi ondan ibarətdir ki, bütün ölkələrdə yaşayan azərbaycanlılara mümkün olan qayğını, diqqəti göstərsin, onların həyatı ilə maraqlansın və dövlətimizlə ayrı-ayrı ölkələrdə olan Azərbaycan icmaları arasında əlaqələri daha da inkişaf etdirsin. Azərbaycanın xaricində yaşayan azərbaycanlılar isə gərək indi müstəqil Azərbaycan ilə daha sıx əlaqələr qursunlar. Bunlar hamısı dünyada olan bütün azərbaycanlıların birliyinin, həmrəyliyinin təmin olunması üçün əsas şərtlərdir"- bu sözlərin müəllifi olan Ulu Öndər Heydər Əliyevi Azərbaycan xalqının, bütövlükdə, dünyanın ən böyük şəxsiyyətlərindən biri adlandıranlar tamamilə haqlıdırlar.

### AZƏRBAYCANÇILIQ İDEYASININ DAVAMÇISI

Bizi, Azərbaycan Respublikasının vətəndaşlarını və dünya azərbaycanlılarını birləşdirən ideya, dəyər azərbaycançılıqdır. Bu dəyər Azərbaycan dövlətini qorumaqdır, vətəndaşlarımızın və dünyadakı soydaşlarımızın həmrəyliyidir, birliyidir. Hər il qeyd etdiyimiz, bu il qalib ölkənin vətəndaşları kimi qarşıladığımız Dünya Azərbaycanlılarının Həmrəyliyi Günüdür, Azərbaycançılıq. Hər il dekabrın 31-i - bu tarixi günü böyük həvəs və coşqu ilə qeyd edirik. Birliyimizin, həmrəyliyimizin rəmzi gününə çevrilən bu tarix dünyanın bütün yerlərində yaşayan azərbaycanlıları bir bayraq altında toplayır. Tarix dəfələrlə sübut edib ki, milli birliyi formalaşdırmaq, eyni hədəf uğrunda mübarizəni təmin etmək üçün böyük liderlərə ehtiyac duyulub. Bu müqəddəs missiyanı həyata keçirən müstəqil Azərbaycanın qurucusu, Ulu Öndər Heydər Əliyev çoxmilyonlu Azərbaycanlıları birləşdirmək istəyi, arzusu, amalı ilə bu tarixi hadisənin bünövrəsini qoymuşdur.

31 dekabr tarixinin bütün dünya azərbaycanlılarının birlik, həmrəylik günü kimi hər il böyük təntənə ilə qeyd olunduğunu bildirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlıların vahid ideologiya ətrafında sıx birləşməsinin Ulu Öndərin adı ilə bağlı olduğunu qeyd edərək demişdir: "Dünya azərbaycanlılarının həmrəyliyi və birliyi üçün Ulu Öndər çox böyük səylər göstərmişdir. Hələ 1991-ci ildə Naxçıvanda onun təşəbbüsü ilə 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü" kimi elan edilmişdir".

Dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın müstəqil Azərbaycan Respublikası ilə əlaqələrinin daha da möhkəmləndirilməsi, onların birliyinin və həmrəyliyinin təmin olunması məqsədilə 2001-ci il mayın 23-də Heydər Əliyevin imzaladığı sərəncamla 2001-ci il 9-10 noyabr tarixində Bakıda Dünya Azərbaycanlılarının I qurultayı keçirildi. Qurultayda dərin məzmunlu nitq söyləyən Ulu Öndər Heydər Əliyev dünya azərbaycanlılarının milli birliyinin və həmrəyliyinin təmin edilməsi, Azərbaycan dövləti və dünya azərbaycanlılarının əlaqələrinin möhkəmləndirilməsi, qarşıya çıxan problemlərin həllində səylərin birləşdirilməsi zərurəti, o cümlədən, ana dilinin, milli-mənəvi dəyərlərin qorunub saxlanılması, inkişaf etdirilməsi haqqında fikirlərini bildirmişdir. "Hər bir insan üçün onun milli mənsubiyyəti onun qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!" - müdrik rəhbərin bu kəlamları hər bir həmvətənimiz üçün milli qürur rəmzinə çevrilmişdir.

### İLHAM ƏLİYEVİN FƏALİYYƏT KONSEPSİYASI - DÜNYA AZƏRBAYCANLILARININ VAHİD İDEYA ƏTRAFINDA BİRLƏŞDİRMƏK

Belə ki, Prezident İlham Əliyevi xalqın sevimlisinə çevirən amillər sırasında təbii ki, onun tariximizə, şanlı keçmişimizə, müstəqilliyimizin simvolu olan dövlət atributlarına hörmət və ehtiram da xüsusi yer tutur. Məhz Prezident İlham Əliyevin həyata keçirdiyi fəaliyyət konsepsiyası dünya azərbaycanlılarının vahid ideya ətrafında birləşdirilməsi üçün strateji xətdir və verdiyi bütün vədləri gerçəkləşdirir: "Biz 30 ilə yaxın idi ki, həmişə deyirdik ki, gün gələcək doğma ata-baba torpaqlarımıza qayıdacağıq. Deyirdik ki, gün o gün olsun torpaqlarımızı erməni üzdəniraqlarından, vəhşilərindən, şərəfsizlərindən azad edək. Ancaq indi Prezidentimizin uzaqgörən, qətiyyətli siyasəti nəticəsində biz bu gün həmin torpaqları erməni üzdəniraqlarından, alçaqlarından geri almışıq. Böyük qələbəni al qanı ilə yazan şəhidlərimizin intiqamının alınması ilə əldə edilən zəfəri, qalibiyyəti Azərbaycan xalqına bəxş etməklə Ali Baş Komandan İlham Əliyev həm də həyatını Azərbaycana həsr edən, "Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan yoxdur" - deyən Ulu Öndərin arzusunu reallaşdırdı.

Birlik və həmrəylimizi dünyaya bir daha bəyan edən 44 günlük Vətən müharibəsində xalq-ordu-iqtidar birliyi şanlı Qələbənin əldə edilməsində mühüm rol oynadı. Döyüş meydanında, diplomatiyada, informasiya müharibəsində birlik və həmrəylik göstərən Azərbaycan xalqı Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə öz tarixi missiyasını şərəflə yerinə yetirərək işğal olunmuş torpaqları düşməndən azad etdi. Dağlıq Qarabağ öz əzəli xalqına geri qaytarıldı. Prezident İlham Əliyevin 18 il ərzində qətiyyətli və düşünülmüş şəkildə yürütdüyü siyasət öz bəhrəsini verdi və bu günlər hamımız mübarək zəfərin bir illik təntənəsini yaşayır, bütövlüyümüzün və birliyimizin sevincini bölüşürük. Böyük fəxarət və qürur hissi ilə qeyd edirik ki, haqq savaşımızda Azərbaycan regionda yeni siyasi reallığın müəllifi kimi bir daha sübut etdi ki, ölkəmizlə heç zaman güc dilində danışmaq, ona hansısa şərtləri diqtə etmək qeyri-mümkündür.

Prezident İlham Əliyevin xalqa müraciətində dediyi kimi: "Fəxrlə deyə bilərəm ki, bu gün Azərbaycan həmişəkindən daha güclüdür. Bizim gücümüz tək iqtisadi və hərbi qüdrətimizlə deyil, həm də sıx birliyimizlə ölçülür. Ona görə də harada yaşamağımızdan asılı olmayaraq, milli birlik və həmrəylik ideyaları, bizi birləşdirən əsas dəyərlər kimi, hər birimizin düşüncəsinə hakim kəsilməlidir".

Bir sözlə, bu gün şanlı qələbə ilə sonlanan "44 günlük Vətən müharibəsi"ndə nümayiş etdirdiyimiz "Dəmir Yumruq" həmrəyliyi - Azərbaycan birliyinin ilk carçısıdır! Gəlin, bir olaq, həmrəy olaq! Çünki - BİZ BİRLİKDƏ GÜCLÜYÜK...

***RƏFİQƏ KAMALQIZI***

# Şahmar Mövsümov: "Azərbaycanda koronavirusla bağlı vəziyyət sabitdir"

**Vaksinasiyanın yetərincə qoruması haqqında artıq bizim əlimizdə kifayət qədər statistik məlumatlar var. Azərbaycanda koronavirusla bağlı vəziyyət sabitdir. Bu sabitlik təbii ki, həm vaksinasiya, həm də qaydalara riayət olunmaqla əldə edilib. Ona görə də yeni müddətin tətbiq olunması haqqında Operativ Qərargahın müvafiq qərarı bu yaxınlarda imzalanacaq və yerləşdiriləcək.**




AZƏRTAC xəbər verir ki, bu sözləri Nazirlər Kabineti yanında Operativ Qərargahın dekabrın 28-də təşkil etdiyi brifinqdə Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının iqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri Şahmar Mövsümov bildirib.

"Vəziyyətimiz sabitdir, amma xahişimiz odur ki, heç kəs düşünməsin artıq pandemiya bitdi və biz qaydalara riayət etməyə bilərik. Birlikdə bu xəstəliyin öhdəsindən gəlmək üçün hamımız qaydalara riayət etməliyik, vaxtında vaksinimizi vurdurmalıyıq. İkinci dozadan sonra 6 aya yaxınlaşan şəxsləri təcili olaraq üçüncü dozanı vurdurmağa çağırırıq", - deyə Şahmar Mövsümov qeyd edib.

Şahmar Mövsümov daha sonar diqqətə çatdırıb ki, "Omicron" ştamının digər ölkələrdə yaratdığı problemlərin Azərbaycanda da baş verməsi ehtimalı kifayət qədər yüksəkdir. Biz bunu anlamalıyıq. Vəziyyəti nəzarətdə saxlamağın yeganə yolu vaksinasiyadır. Elmi tədqiqatlar, dünyanın aparıcı universitetlərinin tədqiqat mərkəzlərinin son araşdırmaları göstərir ki, vaksinasiya iki dozadan sonra kifayət qədər yüksək qoruyucu qüvvəyə malikdir. Amma, eyni zamanda, həmin tədqiqatlar nəticəsində görmək olur ki, artıq ikinci dozadan 4 ay sonra immunitet azalmağa başlayır. Yəni, qoruyucu immunitetin tədricən azalması müşayiət olunur. Bunun üçün üçüncü dozanın - buster dozanın vurulması ciddi tövsiyə edilir. Buster dozanın vurulması prosesi Azərbaycanda da başlayıb. Ölkəmizdə artıq 1 milyon 200 mindən çox vətəndaş buster dozanı alıb. Bu proses davam edir.

Şahmar Mövsümov deyib ki, eyni zamanda, bu prosesdə daha çox qoruyucu, ehtiyatlı yanaşmanı tətbiq etmək məqsədilə hazırda istifadə olunan COVID pasportlarının, vaksinasiya və immunitet sertifikatının vaxtına məhdudiyyət qoyulur. Fevralın 15-dən COVID pasportlarının ikinci dozasından sonra müddəti 6 ay müəyyən edilir. İkinci dozadan 6 ay keçdikdən sonra COVID sertifikatı artıq öz qüvvəsini itirmiş olur. Bildiyimiz kimi, hazırda müəyyən yerlərə yalnız COVID pasportu ilə daxil olmaq mümkündür. Təbii ki, vaxtı keçmiş COVID pasportla artıq həmin məkanlara daxil olmaq mümkün olmayacaq. Fevralın 15-dək bütün vaksin sertifikatları qüvvədə qalır. Hazırda buster dozanı ikinci dozadan 5 ay sonra vurmaq mümkündür. Eyni zamanda, Azərbaycanda immunitet sertifikatının müddəti 6 ay müəyyən edilib. Yenə də bir buster doza vurmaqla immunitet sertifikatının müddəti uzadılır.



# "Vikipediya"da Azərbaycan həqiqətləri" adlı tədbir keçirilib



**Yeni Azərbaycan Partiyası Yasamal rayon Təşkilatında "Qorqud" Vikipediya Metodik Klubunun "Vikipediya"da Azərbaycan həqiqətləri" adlı tədbiri keçirilib. SİA xəbər verir ki, tədbirdə millət vəkilləri Elnur Allahverdiyev, Ramin Həsən, Anar Məmmədov, Naqif Həmzəyev, YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov və tanınmış şəxslər iştirak ediblər.**

Tədbirdə "Qorqud"un 2021-ci ildə azad ensiklopediyadakı fəaliyyətinə dair hesabatı təqdim olunub. İlk öncə Vətən müharibəsində şəhid olanların xatirəsi 1 dəqiqəlik sükutla yad edilib.

Çıxış üçün ilk söz millət vəkili Elnur Allahverdiyevə verilib. Deputat çıxışında ermənilərin azərbaycanlılara aid ərazi adlarını saxtalaşdırmaları barədə danışıb və Azərbaycanın dünyaya tanıdılmasının vacibliyini vurğulayıb.

Ardınca çıxış edən könüllü Ayxan Ziyadzadə Azərbaycanın tanınmasında vikipediyanın əhəmiyyəti, "Qorqud" Vikipediya Metodik Klubu, "Qorqud"un 2021-ci ildə azad ensiklopediyadakı fəaliyyəti barədə danışıb. Sonra qaliblərə diplomlar təqdim edilib. Diplomları millət vəkilləri təqdim ediblər.

Növbəti çıxış üçün söz millət vəkili Ramin Həsənliyə verilib. Millət vəkili bu klubun fəaliyyətinin vacibliyinə toxunub və bu işdə fəal olan gənclərə dəstəyi yüksək qiymətləndirib, bu işdə zəhməti olan hər kəsə minnətdarlıq ifadə edib. Çıxış edən millət vəkili Naqif Həmzəyev vikipediada Azərbaycan barədə informasiya yerləşdirilməsinin önəmini qeyd edib və vacibliyini vurğulayıb.

Daha sonra çıxış edən YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov da tədbirlə bağlı fikirlərini bölüşüb, tədbirin mahiyyəti və əhəniyyətin barədə danışıb. Tədbir çıxışlarla davam etdirilib və "Qorqud"un 2021-ci ildə azad ensiklopediyadakı fəaliyyəti barədə fikirlər səsləndirilib.

*İnam Hacıyev*

"Qarabağı artıq hərbi güc və qüvvənin tətbiqi ilə nəzarətdə saxlamağın qeyri-mümkün olmasının mahiyyətinə varan Paşinyan iqtidarı Qarabağla bağlı mövqeyinə kosmopolit yeniliklər etməklə Ermənistanı artıq bir tərəfdən çəkə bilmədiyi yükdən qurtarmaq, digər tərəfdən isə beynəlxalq maliyyə mərkəzlərindəki bəlli dairələrin sifarişi ilə bölgədəki geosiyasi reallıqları dəyişməyə, 2016-ci ildə BMT TŞ nin müstəvisinə keçirilmiş danışıqları ATƏT müstəvisinə qaytarmağa çalışır". Bu fikirləri SİA-ya açıqlamasında politoloq Elşən Manafov deyib.



# İran Səfirliyi: "Xankəndi şəhərində iranlı idmançıların iştirakı qanunsuzdur"

Azərbaycanın Xankəndi şəhərində xüsusi idman yarışlarında bir neçə iranlının iştirak etməsi qanunsuzdur. SİA-nın məlumatına görə, bu, İranın Azərbaycandakı Səfirliyinin Azərbaycanın Xankəndi şəhərində xüsusi idman yarışlarının keçirilməsi ilə əlaqədar bəyanatında öz əksini tapıb.

Bəyanatda bildirilir ki, özünü İran vətəndaşı kimi təqdim edən bir neçə şəxsin 28 dekabr 2021-ci il tarixdə Azərbaycan Respublikasının Xankəndi şəhərində döyüş yarışlarında iştirakı ilə bağlı bildirmək istərdik ki, İran İslam Respublikasında MMA (qarışıq döyüş növləri) qeyri-ənənəvi döyüş idmanı zorakılıq səbəbi ilə, həmçinin mərclə əlaqəsi olduğu üçün rəsmən tanınmır və qadağan olunmuş oyunlar sırasındadır. Buna görə də, bu döyüş növünün İran İslam Respublikasında heç bir federasiyası yoxdur. Bu sahə ilə məşğul olanlar isə gizli və qeyri-qanuni fəaliyyət göstərirlər.

"Dekabrın 28-də Azərbaycan Respublikasının Xankəndi şəhərində keçirilən yarışların iştirakçılarının İran İslam Respublikasının İdman Nazirliyi ilə heç bir əlaqəsi yoxdur və onlar dünyanın istənilən yerində qeyri-qanuni olaraq yarışlarda iştirak edirlər. Səfirlik bu şəxslərin Xankəndi şəhərində adı keçən qanunsuz yarışlarda iştirakı ilə İran İslam Respublikasının İdman və Gənclər Nazirliyinin siyasəti arasında əlaqənin olmadığını bir daha vurğulayır", - deyə bəyanatda bildirilir.

# Ermənistanda hakimiyyətlə seperatçılar arasındakı qarşıdurma bizə nə verir?

Ekspertin sözlərinə görə, Ermənistandakı rəngli inqilab və bunun nəticəsində burada baş vermiş hakimiyyət dəyişikliyi məlumdur ki, Rusiyanı qane etməyib: "Çünki Sorosun, əslində isə Rotşildlərin maliyyə dəstəyi ilə Ermənistanda hakimiyyətə yiyələnmiş Paşinyan Cənubi Qafqazda qüvvələr nisbətini məlum maliyyə və qlobal mərkəzlərin sifarişi əsasında dəyişməli, Ermənistanda Rusiya təsir imkanlarını zəiflətməklə Gürcüstan və Ukraynadan sonra Rusiya və onu dəstəkləyən qlobal maliyyə mərkəzləri üçün yeni problemlər yaratmalı idi. Türkiyə və Pakistanı Azərbaycan tərəfində oyuna çəkməklə məlum qlobal maliyyə mərkəzləri burada KTMT və NATO arasında qarşıdurma yaratmaqla Cənubi Qafqazda yeni geosiyasi mənzərə yaratmaq istəyirdilər. Rusiya və Azərbaycan tərəfinin dəqiq gedişləri nəticəsində yeni geosiyasi reallıqlar təbii ki, Qərbi qane etmədi. Azərbaycan Rusiyanın Paşinyan iqtidarından olan narazılığından məharətlə istifadə etdi. Türkiyə və Rusiya arasında qarşıdurmanın yaranmasına səbəb ola biləcək məlum planların realizə olunmasına imkan vermədi".

E.Manafov deyib ki, Rusiya sülhməramlılarının münaqişə bölgəsinə daxil olmasına imkan verməklə, bölgədəki strateji tarazlığın pozulmasında tərəflərin heç birinin yanında yer almadi: "İndi seperatçı rejimin Paşinyana qarşı çıxış etməsi əslində Rusiya Azərbaycan münasibətlərində mövcud durumun qlobal maliyyə mərkəzlərinin xeyrinə olaraq dəyişməsinə, deməli bölgədə həm də nəqliyyat-kommunikasiya xətlərinin açılmamasına hesablanıb. Gürcüstanda olduğu kimi, burada da məqsəd Rusiyanı Abxaziya və Osetiya ətrafındakı oyunlar zamanı eyni tipli hərəkətlərə sövq etməkdir. Rusiya Qərbdə etdiyi kimi Qarabağın erməni əhalisinə Rusiya pasportları paylamaqla onları öz himayəsi altına çəkir. Nəticə etibarilə Azərbaycan bəlli qlobal maliyyə mərkəzlərinin istədiyi kimi Rusiya ilə münasibətlərə yeni ştrixlər gətirməli olur. Əslində, isə Rusiyanı MDB məkanında daha böyük münaqişəyə cəlb etməklə onun bölgədəki mövqelərinə zərbələr endirilir".

*Aysel Məmmədova*

# “Sizin sevginiz bizim ən böyük güc və ilham mənbəyimizdir”



44 günlük Vətən müharibəsində 30 ilə yaxın erməni işğalında olan torpaqlarımız azad olunandan sonra Azərbaycan Prezidenti İlham Əliyevlə birgə Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın tarixi və əzəli torpaqlarımıza səfəri və həmin məkanlarla bağlı etdiyi paylaşımları hər kəsdə maraq oyadır. Hər bir paylaşımda Xalqa və Vətənə məhəbbət, bağlılıq özünü dərindən göstərir. Bir insanın nəcib hissləri, duyğuları qələmə alınır. Bu cümlələr qısa olsa da ifadə olunan sözlərdə böyük bir ürək görünür. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın səmimi hissləri, düşüncələri ilə tanışlıq bir insanın əməllərinə, dünyagörüşünə açılan səhifədir. Bu günlərdə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəsmi instaqram səhifəsində Şuşadakı Yuxarı Gövhər Ağa məscidindən paylaşdığı videogörüntü maraq doğurur. Paylaşımda bu sözlər yer alıb: ”Allah bütün duaları qəbul etsin və öz mərhəmətini xalqımızdan əsirgəməsin!”. Hər bir səfərdən, tarixi, önəmli hadisələrlə bağlı paylaşımlar Azərbaycanın ictimai-siyasi, mədəni sosial həyatının reallıqlarını ortaya qoymuş olur. Milyonlarla insanın məhəbbətini qazanan, onların ümid və pənah yerinə çevrilən, ən çətin anlarında yanında olaraq mərhəmət və xeyirxahlığı ön plana çəkmək daxili tələbatdır. Bu insanlığın ən ali və ən yüksək nöqtəsidir. Sosial müdafiəyə ehtiyacı olan insanların maddi durumunun yaxşılaşdırılması, fiziki cəhətdən zəif, qüsurlu olan uşaqlara, yaşlı və kimsəsiz insanlara maddi və mənəvi dayaq olmaq həssas münasibətdən, qayğıkeş qəlbdən qaynaqlanır. Fəaliyyətə başladığı zamandan böyük və məsuliyyətli missiyanın daşıyıcısı olmaq yükünü üzərinə götürən Mehriban xanım Əliyevanı həyat missiyasından, məramından uzaq salmır. Əksinə, genişmiqyaslı layihələri ilə məsuliyyət hissini daha da artırır. Ən çətin anlarda, kədərli, hüznlü günlərdə, eləcə də xalqımızın sevincli, iftixarlı zamanlarında insanların yanında olaraq, onlarla öz fikirlərini bölüşmək əlbəttə ki, Mehriban xanım Əliyevaya ucalıq gətirir. Neçə illərdir ki, ağır və məsuliyyətli yükü çiyinlərinə götürərək yoluna davam edir. ”Biz sizin xoş münasibətinizi daim hiss edirik və məhz sizin sevginiz bizim ən böyük güc və ilham mənbəyimizdir”, - deyir Mehriban xanım Əliyeva.

Həssas qəlbi, iradəsi ilə bütün hadisələrə münasibətində onun xalqa sevgisini, məhəbbətini görürük. Azərbaycan həqiqətlərinə laqeyd qalmır. Kəlbəcər rayonunun Susuzluq kəndi ərazisində erməni diversantları tərəfindən basdırılan tank əleyhinə minanın partlaması nəticəsində Azərbaycan yenidən erməni terrorunun acı nəticələrini yaşamış oldu. Azərbaycan Televiziyasının operatoru Sirac Abışov və Azərbaycan Dövlət İnformasiya Agentliyinin müxbiri Məhərrəm İbrahimov, habelə rayon icra hakimiyyətinin nümayəndəsi Arif Əliyevin həlak olması, daha 4 nəfərin yaralanması erməni faşist ideolgiyanının daha bir göstəricisi oldu. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva rəsmi ”İnstaqram” səhifəsində Kəlbəcərdə azərbaycanlı dinc mülki şəxslərin mina partlaması nəticəsində həlak olması ilə bağlı etdiyi paylaşımda qeyd edirdi: ”Müharibə başa çatdıqdan sonra azad olunmuş ərazilərdə 140 nəfərdən çox insan erməni işğalçıları tərəfindən quraşdırılmış minalara düşüb. Onlardan 27-si həlak olub. Günahsız insanların ölümünə görə bütün məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür. Azərbaycan tərəfinin mina xəritələrinin təqdim edilməsi ilə bağlı çoxsaylı çağırışlarına baxmayaraq, Ermənistan bundan imtina edir və bununla da beynəlxalq humanitar hüququ pozmağa və Azərbaycana qarşı terror siyasəti həyata keçirməyə davam edir”.

Bu yaxınlarda Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instaqram səhifəsində Ermənistanın törətdiyi növbəti hərbi təxribat nəticəsində yaranan silahlı qarşıdurma zamanı həlak olmuş hərbçilərimizlə bağlı etdiyi paylaşımı da diqqətdən kənarda qalmadı. Həmin paylaşımda deyilirdi: ”Ermənistanın törətdiyi növbəti hərbi təxribat nəticəsində yaranan silahlı qarşıdurma zamanı həlak olmuş əsgər və zabitlərimizin doğmalarına və yaxınlarına dərin hüznlə başsağlığı verirəm. Allah bütün şəhidlərimizə rəhmət eləsin, onların ailələrinə səbir versin. Yaralıların tezliklə sağalmasını diləyirəm. Uca Tanrı Vətənimizi qorusun!”. Bütün bu və digər paylaşımlarda bir daha Mehriban Əliyevanın vətənə və onun övladlarına olan isti və sevgidən yoğrulmuş münasibətini görürük.

### “BİR ZAMANLAR ERMƏNİLƏRİN VƏHŞİCƏSİNƏ DAĞITDIĞI, TÖVLƏYƏ ÇEVİRDİYİ MÜQƏDDƏS DİNİ MƏKANLARIMIZ YENİDƏN DİRÇƏLƏCƏK”

Artıq Heydər Əliyev Fondu qədim Qarabağ torpağında dini abidələrimizin, məscidlərimizin bərpası üzrə layihəyə başlayıb. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın rəsmi ”Instagram” səhifəsindəki paylaşımında qeyd edirdi: ”Layihə çərçivəsində yerli və xarici mütəxəssislərin iştirakı ilə bölgədəki ziyarətgahlarımızın bərpası, konservasiyası və yenidən qurulması həyata keçiriləcəkdir Bir zamanlar ermənilərin vəhşicəsinə dağıtdığı, tövləyə çevirdiyi müqəddəs dini məkanlarımız yenidən dirçələcək və bütün Qarabağ ərazisindəki məscidlərimizdə azan səsləri eşidiləcək, dualar oxunacaqdır!”

44 günlük müharibəni Zəfərlə başa vuran Azərbaycanda reallaşacaq layihələrə Mehriban xanım Əliyeva öz töhfəsini verir. Möhtəşəm ”Xarı Bülbül” festivalına rəhbərlik etməsi bütün dünyaya səs saldı. 30 ildən sonra ”Qarabağ şikəstəsi” Cıdır düzündə səsləndirildi. Xatırladaq ki, 2019-cu ildə məcburi köçkünlərlə Heydər Əliyev Mərkəzində ad gününü keçirərkən, ”Bizim vahid arzumuz Qarabağ şikəstəsini Qarabağ torpağında birlikdə eşitməkdir. Mən əminəm ki, Prezidentimizin, dövlətimizin qəti siyasəti və mövqeyi, Allahın köməyi ilə biz buna nail olacağıq”- deyə bildirmişdir. Xoş niyyət Ona xoşbəxt anları yaşatdı.

### “BİZ BİRLİKDƏ VƏTƏNİMİZİ BU XƏSTƏLİYİN TƏHLÜKƏLİ SURƏTDƏ YAYILMASINDAN QORUYA BİLDİK”

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva dünyanın qlobal çağırışla üz-üzə qaldığı zamanda belə xalqla həmrəylik nümayiş etdirdi və bu gün də belədir. Dünyanın bir parçası olan Azərbaycan ”SOVİD 19” pandemiyasını yaşamış oldu. Dünyanın belə riskə hazır olmadığını yazan Mehriban xanım Əliyeva bildirirdi ki, hətta səhiyyə sahəsində büdcələri milyardlarla ölçülən, nəhəng elmi-intellektual potensiala, qabaqcıl texnologiyalara malik ən inkişaf etmiş ölkələrin belə epidemiyanın yayılmasının qarşısını ala bilmədilər. Verdiyi müsahibələrin birində isə belə deyirdi: ”Ekspertlərin fikrincə, bizim ölkəmiz epidemiyanın ilk və olduqca təhlükəli mərhələsini ən az sayda itki ilə başa vurmuş dövlətlər sırasındadır. Biz epidemiya ilə mübarizənin bütün aspektlərini koordinasiya edən peşəkar komanda yaratmağa, zəruri texniki və insan resurslarını birləşdirməyə müvəffəq olduq. Tətbiq edilmiş karantin tədbirləri koronavirusun yayılma sürətini azaltmağa kömək etdi. Biz birlikdə Vətənimizi bu xəstəliyin təhlükəli surətdə yayılmasından qoruya bildik.”

### “AĞRI VƏ İZTİRABLAR SƏRHƏD TANIMIR”

İnam hissi də güclüdür Mehriban Əliyevada: ”İnanıram və ümid edirəm ki, ümumi səylərimiz mütləq nəticə verəcək. Bəşəriyyət bu çağırışın öhdəsindən gələcək və daha da güclənəcək. Həmçinin ümid edirəm ki, biz sadə həqiqətlər barədə düşünüb onları yenidən dərk etməyə çalışacağıq. Biz biri-birimizdən fərqliyik, amma evimiz birdir. Özgə dərd olmur. Ağrı və iztirablar sərhəd tanımır”. Mehriban Əliyeva bütün həmvətənlərimizi vətəndaş məsuliyyəti nümayiş etdirməyə, Nazirlər Kabineti yanında Operativ Qərargahın tövsiyə və tələblərinə ciddi riayət etməyə çağırış etdi: ”Hamınızdan xahiş edirəm, öz böyüklərinizi qoruyun! Virusa yoluxmuş insanların mütləq əksəriyyətində xəstəlik yüngül formada keçir və sağalma ilə nəticələnir. Daha çox yaşlı nəslin nümayəndələri, xroniki xəstəliklərdən əziyyət çəkənlər, immuniteti zəif olanlar xüsusi risk qrupuna aiddir. Biz, azərbaycanlılar həmişə böyüklərimizə xüsusi qayğı və hörmətlə yanaşmışıq, onları həssaslıqla qorumuşuq. Əminəm ki, üzləşdiyimiz bu vəziyyətdə biz daha diqqətli olacağıq”. Sonda isə Mehriban xanım Əliyeva belə yazır: ”Əminəm ki, müdrik xalqımızın ən gözəl xüsusiyyətləri - ruh yüksəkliyi və mərdlik, mərhəmət və şəfqət, inam və məhəbbət sayəsində biz birlikdə bu ciddi çağırışın öhdəsindən gələcəyik”. Bu isti və səmimi münasibətləri Onu insanlara daha da yaxınlaşdırıb. Azərbaycan xalqına mənəvi dəstəyini heç zaman əsirgəməyib. Milyonların pənah yeri, ümid çırağıdır.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Yeni il bayramı: bazarlarda qiymətlər "nə deyir"?




**Həm xoşbəxtlik, həm də tələskənlik dövründəyik, çünki bayram gəlir. Bayram birlik, sevdiklərimizlə bir araya gəlmək deməkdir. Bəlkə bayram süfrələrində ailənizi qonaq etmək üçün hansı xörəkləri bişirəcəyiniz, bəlkə də bayramda nə vaxt uşaqlarınızı paltar alverinə çıxaracağınızı düşünməyə başlamısınız... Qarşıda bizi Yeni İl bayramı gözləyir və alış-veriş artıq başlayıb. Bu prosesdə qənaət etmək istəyirsinizsə bu yazı sizin üçündür. Qənaətcil alış-veriş üçün məsləhətlər:**

## Qida alış-verişinə qənaət etmək üçün məsləhətlər

Təbii ki, bayramların olmazsa olmazı bayram süfrələridir. Bayramı qeyd etmək üçün qapınızı döyən və ya evinizə qonaq gələn uşaqlara şirniyyat verməmək mümkün deyil. Bu səbəbdən şokolad və şirniyyatlar da hər bayram ərzaq alış-veriş siyahısına daxil edilir. Şokolad və konfet qiymətlərinin çox baha olduğunu düşünürsünüzsə və qənaət etmək istəyirsinizsə, kiçik muffin qəliblərində dadlı muffinlər hazırlayıb uşaqlara təqdim edə bilərsiniz.

Bayram günlərində endirimləri izləmək yaxşı fikirdir. Bayramla əlaqədar bəzi marketlərdə olan endirimlər sayəsində ehtiyaclarınızı daha sərfəli qiymətə əldə edə bilərsiniz. Bəli, "az əvəzinə çox olsun" düşündüyünüzü bilirik və buna görə də bütün yeməkləri çox bişirirsiniz. Ancaq unutmamalısınız ki, bu yanaşma sizi qənaət etməkdən yayındırır. Ehtiyacınız olduğu qədər bazarlıq etmək və lazım olan qədər yemək hazırlamaqla həm büdcənizi qoruya, həm də qida israfının qarşısını ala bilərsiniz.

Bayramqabağı alış-veriş zamanı bayram menyunuzu evdəki yeməklərə uyğunlaşdıraraq daha az pul xərcləmək mümkündür. Məsələn, bayram dondurucuya qoyduğunuz xəmirləri və tərəvəzləri çıxarmaq üçün mükəmməl vaxtdır. "1 alana 1 pulsuz", 3 ödə 2 və ya 50% endirimlə məhsul alsanız, qənaət etmiş olarsınız.

Bayram yeməkləri üçün ilkin hazırlıq görmək istəyirsinizsə, bayramdan əvvəl dondurulmuş və ya konservləşdirilmiş məhsulları saxlaya bilərsiniz. Bu sayədə bayram günlərində büdcənizi yormazsınız. Ət xörəklərinizi paxlalılarla çoxalda, salat və qəlyanaltı hazırlayarkən paxlalardan istifadə edə bilərsiniz. Paxlalılar dadlı, qida dəyəri çox və ucuzdur. Yemək üçün alış-veriş edərkən ailəniz üçün qəşəng təqdimatlar hazırlamağınıza kömək edəcək qablar və süfrələr ala bilərsiniz.

## Geyim alış-verişinə qənaət etmək üçün məsləhətlər

Gəlin etiraf edək ki, bayramda təzə paltar geyinmək yaşımızdan asılı olmayaraq bizi sevindirən bir şeydir. Bəs, bayram qabağı geyimləri alarkən qənaətlə alış-veriş etmək olarmı?

E-ticarət saytlarında kampaniyalar qənaət etməyə kömək edə bilər. Bununla belə, bu satınalmalarda təxmini məhsulun çatdırılma tarixini və məhsulun ölçüsünün böyük və ya kiçik olma ehtimalını da nəzərə almalısınız. Beləliklə, alış-verişi son günə qoyursanız, bayram günündə geyinməyə heç nə tapa bilməyəcəksiniz.

Əgər "Mən geyimi görmədən və sınamadan almıram" deyənlərdənsinizsə outlet mağazalarında endirimli məhsullar da var. Təbii ki, peyvənd geniş yayılsa da, COVID-19-a görə ehtiyat tədbirlərinin görülməsi faydalıdır. Məhz bu səbəbdən alış-veriş sıxlığının artacağı bayram öncəsi dövrü gözləmədən alış-veriş etmək sağlam ola bilər.

## Təmizlik alış-verişinə qənaət etmək üçün məsləhətlər

"Bayram" deyildikdə ağıla gələn şeylərdən biri də təbii ki, bayram təmizliyidir. Bu bir həqiqətdir ki, təmizlik məhsullarına da müəyyən büdcə ayrılmalıdır. Beləliklə, təmizlik alış-verişinə necə qənaət etmək olar?

Fərqli sahələrdə istifadəyə uyğun çoxməqsədli məhsullar çox təmizlik məhsulları almanıza mane olur, beləliklə, qənaət edə bilərsiniz. İlk növbədə hansı məhsulu ala biləcəyinizi araşdırmaq daha yaxşıdır. Müxtəlif bazarlardan və ya hətta internetdən qiymət araşdırması aparmaq sizə ən sərfəli variantı tapmağa kömək edə bilər.

Təmizliyə başlamazdan əvvəl ilk öncə dağınıqlığı təmizləyin. Bu yolla həm işinizi asanlaşdırmış, həm də vaxtınıza qənaət etmiş olarsınız. Təmizliyə başlamazdan əvvəl, mebelin arxasındakı tozu təmizləyin və çiçəklərin təmizlənməsini tamamlayın. Təmizlədikdən sonra bu tip işlərin görülməsi təkrar-təkrar təmizlənməyinizə səbəb olacaq. Divarları yenidən rəngləmək əvəzinə, onları sabunlu su ilə silməyə cəhd edə bilərsiniz. Təmizliyi bir gündə bitirməyə çalışmayın. Bu, tələsməyinizə və düzgün təmizləyə bilməməyinizə səbəb olur. Qarşıdakı günlərdə bir daha təmizləməmək üçün bayram təmizliyini bir neçə günə bölə bilərsiniz.

## Təamlar və hədiyyələr

Bayram günlərində ləzzətli təamlar təqdim etmək, uşaqları hədiyyələrlə sevindirmək ənənədir. Bayramda sevdiklərinizi sevindirməyin yollarını axtarırsınızsa, təkliflərimizə nəzər salın: Uşaqlara hədiyyə etmək üçün sürpriz yumurta, şokolad, konfet kimi sürprizlər hazırlaya bilərsiniz. Ətrafınızda ehtiyacı olan qonşularınız ola bilər. Bu insanları müəyyən edərək bayramdan əvvəl ehtiyac duyduqları ət, paxlalılar və s. Onları qida ehtiyatı ilə sevindirə bilərsiniz. Küçənizdə yaşayan ev heyvanları üçün ləzzətli yeməklər ala bilərsiniz.

SİA məsələ ilə bağlı araşdırma apararaq ekspert, sosioloq və deputatların da fikirlərini öyrənib.

**Yazıçı-kulturoloq, analitik ekspert Aydın Xan Əbilov:** "Əslində, Yeni İllə bağlı müxtəlif fikirlər var və fikirlərdən biri də budur ki, Azərbaycanda qiymətlər həddindən artıq çox bahadır. Həm xidmət sahəsi, həm ərzaq, həm bayramların təşkil olunmasında işbazlar həmişə olduğu kimi yenə də qiymətləri qaldırmağa başlayıblar. Bəli, Azərbaycanda müxtəlif bayramlar zamanı qiymətlərin qaldırılması ilə bağlı dəfələrlə ictimai etirazlar olub. Dəfələrlə bununla bağlı cəmiyyətin müxtəlif təbəqələri öz kəskin tənqidi fikirlərini söyləyiblər, səsləndiriblər. Amma, hələ ki, problem həll olunmur. Bu və digər dərəcədə bütövlükdə bir həftəyə yaxın istirahət və yaxud bayram tədbirləri, tətilləri zamanı insanların indiki qiymətlərlə hesablasaq hardasa 300-500 civarında xərci çıxması gözlənilir. Orta, yəni 4 nəfərdən ibarət bir ailənin bayram süfrəsi, Yeni İl təbrikləri, Yeni İl hədiyyələri, Yeni İl şənliyi məclislərinə getmək, istirahətlərini təşkil etmək, 3-4 günlük rayonlara və yaxud da Bakı ətrafında bağ evlərinə köçüb istirahətə etmək bundan iki dəfə və yaxud üç dəfə baha başa gələ bilər. Amma evin içində Bakıda keçirsələr və yaxud rayonların özündə, doğma yerlərdə keçirsələr 300-500 civarında pul xərcləməli olacaqlar. Bu da minimal hesablanmadır. Çünki bilirsiniz ki, son vaxtlar iqtisadi vəziyyət dünyanın hər yerində gərgindir, qiymətlər qalxır, müxtəlif ərzaq və yeyinti məmulatlarının qiymətləri qalxır, xidmət sahələri qiymətləri qaldırırlar, nəqliyyat və logistik xidmətlərindən tutmuş, restoran otel biznesinə qədər hər kəs dünyada gedən iqtisadi proseslər nəticəsində yüksələn qiymətlərə cavab verən qiymətlər təklif edir. Əlbəttə, Yeni il Azərbaycanda xüsusilə də İrandan və şərq ölkələrindən gəlmə turistlər hesabına bir gərginlik yaranır. Əslində iqtisadiyyat baxımından bu müsbət bir gərginlikdir, amma, digər baxımdan yəni, qiymətlərin qalxması sıxlıq yaranması baxımından bir qədər Azərbaycan vətəndaşları üçün çətinlik yarada bilər. Yeni il bayramını bütün dünyada bir çox ölkələrdə həm tətilini, həm də bayramını minimalist formada keçirməyə çalışırlar. Yəni, əvvəlki kimi artıq fikir verirsinizsə, yaşıl ağacların kəsilməsi, böyük yolkaların qurulması, şənliklər, cürbəcür təmtəraqlı fişənglərin atılması yox, çox sadə formada öz valideynlərinin, köməyə ehtiyacı olan insanların əhatəsində, ehtiyacı olan şəxslərə kömək etmək formasında və ən əsası da şən, uşaqları sevindirə biləcək bir şəkildə keçirilməsinin şahidi oluruq.

Əslində əvvəllər belə idi ki, orta məktəblər, ali məktəblər, dövlət qurumları, ictimai qurumlar Həmkarlar İttifaqının xətti ilə Yeni il şənlikləri təşkil edərdilər. Amma, son bir neçə ildə xüsusən də pandemiya və müharibəyə görə, şəhidlərimizə görə belə şənliklərin sayı azalıb, insanlar daha çox fərdi olaraq ya tanıdıqları insanların əhatəsində, ya ailə üzvlərinin əhatəsində yeni illəri təşkil edirlər. Ən çox da daha çox ailədaxili tədbirlər olur və bu zaman da əlbəttə ki, böyük məsrəflərə getməməyə çalışırlar.

İndi dünya dəyişir, bilirsiniz ki, durum get-gedə başqalaşır, əvvəlki kimi deyil. Yəni, iqtisadi cəhətdən böyük insan kütləsinin vəziyyəti yaxşı olsun və o vəziyyətə uyğun olaraq da Yeni İlin xərclərini artırsın. Pandemiya, müharibə şəraiti, iqtisadi geriləmə insanların da həyata baxışlarını da dəyişib və bu həyata baxışlar daha minimalist, daha sadə formada başlayıb. Yeni il bayramları zamanı restoran və kafelər, otellər, turistik məkanlar və istirahət zonalarına əgər siz getmək istəyirsinizsə sözsüz ki, bu sizin bir neçə aylıq məvacibinizi xərcləməyə məcbur olacaqsız. Amma, sadə formada, minimalist formada həyata keçirsəniz, bayramınızı təşkil etsəniz, yaxın, doğma adamların əhatəsində, sözün həqiqi mənasında Yeni ili qarşılamağa çalışsanız onda məncə problem yaşanmayacaq və onda o zaman artıq siz böyük xərclərə də düşməyəcəksiniz. Əlbəttə, bütün bunlar arzuolunandır. Çünki, dünyanın hər yerində bu belədir. İnsanlar artıq qapalı mühitdə yox, daha çox əhalinin az olduğu yerlərdə, tutalım, təbiət qoynunda, meşələrdə, bağlarda, ekoturizm və kənd turizmi o cümlədən də kreativ turizmin verdiyi imkanlar daxilində istirahət etməyə çalışırlar. Qış fəslinə təsadüf etdiyinə görə qış istirahət mərkəzləri daha çox həm daxili, həm beynəlxalq turistləri cəlb edəcək. Amma, Azərbaycanın çox gözəl məkanları var ki, orda da qışın özünəməxsus gözəlliyi var. İnsanlar çalışsalar, orda istirahətlərini təşkil etsələr daha bu cür və az məsrəflərlə qış tətillərini və bayramlarını keçirdə bilərlər. Biz bir daha deyirik ki, Yeni il bayramı zamanı həddindən artıq təmtəraqlı süfrələrə, həddindən artıq çox yemək bişirilməsinə, ərzaq və digər xərclərə ehtiyac yoxdur. Sadə süfrə ilə amma sizə ehtiyacı olan insanlara kömək etməklə bu bayramları təşkil edə bilərsiniz".

**Deputat Azər Badamov da məsələyə öz münasibətini bildirib:** "Bayram ərəfesində bazarlarda məhsulların qiymətlərində müəyyən qədər artımların olmasının təbii hal olduğunu düşünürəm. Çünki ailələr bayramı təntənəli və yüksək əhval ruhiyyə ilə qaşılamaq üçün bazarlıq edirlər. Hər ailə özünün alıcılıq qabiliyyətinə görə bazarlıq edir. Bayram qabağı bazarlıqlarda adi vaxtlardan daha çox tələb yarandığından satıcılar da bundan istfadə edərək qiymətlərdə müəyyən artımlar edərək daha çox qazanc əldə etməyə çalışırlar.

Bazarlarda kəskin bahalaşmanın baş verməməsi üçün dövlət müəyyən şəhərlərdə bayram yarmarkaları təşkil edərək daha uyğun qiymətlərlə kənd təsərrüfatı malları satışa çıxarır. Bu, bazarlardakı qiymətlərə kəskin təsir göstərməsə də daha ucuz qiymətlə məhsullar təqdim edilməklə alıcılara bayram mallarına əlçatanlığının təmin edilməsində müəyyən qədər rol oynayır. Bayram yarmarkaların keçirilməsi ölkəmizdə ənənəvi hal almışdır. Yeni il qabağı belə yarmarkalar bu ildə də paytaxt Bakıda təşkil olunmuşdur. Bayram qabağı qiymət artımları müvəqqəti haldır. Bayramlardan sonra bazarda qiymətlərdə müəyyən qədər azalmaların olacağı gözləniləndir və qiymətlərin bayramlardan əvvəlki səviyyəyə qayıdacağını düşünürəm.

SİA araşdırma mövzusu ilə bağlı şəhər sakinlərinin fikirlərini də öyrənib:

**Şəhər sakini Aliyə Qarayeva:** "Bəli, qarşıdan Yeni İl bayramı gəlir. İnsanların, xüsusilə də ailə başçılarının üzərinə çox böyük məsuliyyət düşür. Yəni, bayram xərcləri, bazarlıq, uşaqlar üçün hədiyyələr və s. Bütün bunları hamı almaq istəyir. Hamı istədiyi kimi bayram bazarlığı edə bilmir. Çünki, günügündən qiymətlərin artdığını müşahidə edirik. Ailədə normal məvacib olmalıdır ki, hamı istədiyi kimi bayram bazarlığı etsin. Mənə belə gəlir ki, normal şəkildə bir bayram bazarlığı etmək üçün minimum 250-300 manat pul lazımdır. Mən normal bazarlığı nəzərdə tuturam. Təbii ki, bu rəqəmlər daha da çox ola bilər. Bayram bazarlığı etmək üçün əlbəttə ki, ailədə normal maaş olmalıdır. İmkan daxilində hamı istəyir ki, bayrama yaxşı hazırlaşsın. Bunun üçün insanların maddi vəziyyəti yaxşı olmalıdır".

**Şəhər sakini Paşa Məmmədov:** "Bayram ərəfələrində bazarlarda, restoran və otellərdə qiymət artımı müşahidə olunur. Səbəb isə artan tələbat və bəzi işbazların artıq qazanmaq həvəsidir. İnsanların xüsusi günlərini yadda qalan keçirmə həvəsi və işbazların bundan sui- istifadə etməsi bayram günlərinin xərcini dahada artıran səbəbləndir".

**Şəhər sakini Zərintac Maisqızı:** "Bəli, bir çoxumuz həyəcanla, gözəl arzularla yeni ili gözləyirik. Bayram üçün hazırlıq görürük, yəni, çox pul xərcləyirik. Bütün bayramlarda digər günlərdən fərqli olaraq xərcimiz daha çox çıxır. Hələ qiymətlərin də baha olması maddi vəziyyətimizə uyğun gəlmir. Ona görə də, bayramlar bizə baha başa gəlir. Bayrama görə qiymətlər aşağı olsa, bəzi şeyləri pulsuz paylasalar istər Yeni İl, istərsə də digər bayramlar maraqlı keçər. Yəni ən kasıb adam belə bayramları gözəl keçirə bilər. Mən ümumi baxanda qiymətlərdən narazıyam".

**Şəhər sakini Alidə Qarayeva:** "Əvvəlki illərə nisbətən bu Yeni İldə bazarlıq xərcimiz daha çox çıxacaq. Bu da bahalaşma ilə əlaqədardır. Düşünürəm ki, ən azından normal bayram bazarlığı üçün 250-300 manat pul ayırmaq lazımdır. Ən çox pul aparan qidalar isə ət və yağdır. Həmçinin tərəvəzlər də buraya daxildir".

***Ayşən Vəli***

# 2022-də nələr gözlənilir?

**2022-ci il Su Pələnginin ilidir. Pələng aktiv heyvandır və buna görə də Çin ulduz falının bütün nümayəndələrindən təşəbbüs tələb edəcək. Özlərini passiv şəkildə göstərənlər bir çox şeylərdə uğur qazanmaq şansını əldən vermək riski ilə üzləşirlər. Mövzu ilə əlaqədar astroloq Sevda Paşayeva SİA-ya müsahibə verib.**

## Bəs 2022-ci il insanlara necə təsir edəcək?

2022-ci il Su Pələnginin ilidir. Məlumdur ki, Su Pələngi aktiv hey-



vandır və Pələng ili insanlardan təşəbbüs tələb edir. Bu il kifayət qədər aktiv keçəcək. Biz dünyamızda kifayət qədər hərəkətlər, dəyişikliklər görəcəyik. 2022-ci il Su Pələngi ili Od Pələngi kimi kəskin aktiv olmur. Burada su heyvanlarının illəri, adətən, daha emosional, düşüncəli, yaradıcı, səbirli olur. Su passiv qadın enerjisi daşıyır. 2022-ci ilin rəqəmlərinin cəmi 6 rəqəmini verir. "2" rəqəmi ayı "6" Venera planetini təcəssüm etdirir. Ay və Venera passiv qadın planetləridir. Ona görə də bu il digər pələng illəri qədər aktiv və kəskin keçməyəcək. Bu il cəmiyyətdə daha çox emosional enerji olacaq. Bu il yaradıcı insanlar üçün, incəsənət insanları üçün çox uğurlu olacaq. Yaradıcı sahələrdə inkişaf etmək üçün çox mükəmməl ildir.

## Bəs ilin hansı ayları daha uğurlu olacaq?

2022-ci ilin gedişatını 2 yerə bölmək olar. Yanvar ayından may ayına qədər və noyabr-dekabr aylarında bizi müxtəlif dəyişikliklər gözləyir. Yupiter balıqlar bürcündən keçəcək. May-noyabr isə Yupiter qoç bürcündə olacaq. İki rəqəmi həm də təzadlar rəqəmidir. Bu nöqteyi-nəzərdən də il iki yerə bölünəcək. Yupiter balıqdan keçəndə bəzi bürclərə uğur gətirəcək birinci 4 ay və sonuncu iki ay su və torpaq bürcünə yaxşı təsir edəcək. Qoç bürcü may-noyabr od və hava bürclərinə uğurlu zamandır. 2022-ci il müxtəlif vaxtlarda bütün bürclərə şans gətirəcək. İlin əvvəli sonu torpaq su orta hissəsi isə od-hava bürclərinə uğur gətirir.

## Bu il hansı bürcün nümayəndələrini nə gözləyir?

Qoçlar üçün bu il uğurlar ilidir. İyun-Oktyabr ayları onlar üçün çox əlverişli, gözəl bir zamandır. Bu zaman işgüzar və aktiv qoçlar öz proyektlərini həyata keçirəcək, öz məqsədlərinə nail olacaq və cəmiyyətdə statuslarını yüksəldəcəklər. İlin 1-ci 4 ayı sağlamlıqlarını qorumaqları məsləhət görülür.

Buğalar üçün 2022-ci il taleyüklü il ola bilər. Yaz və payızda olacaq Günəş və Ay tutulmaları onlara birbaşa təsir göstərəcək və onların qabaqlar səpdikləri toxumlar tutulmalar zamanı öz barını verəcək. Bu nəticələrin yaxşı və ya pis olması hər kəsin niyyətindən, indiyədək gördüyü işlərdən asılıdır.







Əkizlər - may ayından sonra əkizlər üçün 2022-ci ilin uğurlu hissəsi başlayır. Bu zaman onlar uğurla böyük alqı-satqı məsələləri, xarici səyahətlər, xarici dilləri dərindən öyrənməklə məşğul ola bilərlər.

Xərçəng üçün 2022-ci il kifayət qədər təzadlı olacaq. İlin birinci yarısının uğurlu olması gözlənilir, ancaq iyundan başlayaraq Xərçənglər üçün neqativ təsirlər başlayır. Bir yandan işlərdə maneələr yaranır, digər tərəfdən onlar mənəvi sınaqlarla üzləşə bilərlər.

Şir üçün il asan olmayacaq. Şirlər bu il öz sağlamlıqlarına xüsusi diqqət etməli, özlərini xroniki xəstəliklərin kəskinləşməsi və infeksiyalardan qorumalıdırlar. May və Noyab aylarında olacaq ay tutulmaları şirlərə öz mənfi təsirini göstərə bilər. Ancaq tutulmalar arasındakı dövrdən səmərəli istifadə etmək və uğurlar qazanmaq şansı yüksəkdir.

Qarşıdakı il Qız bürcünün nümayəndələrinin ümidlərini doğrultmayacaq.

İlin birinci yarısı onlardan sağlamlığa diqqət və yarımçıq qalmış işləri davam etməyi tələb edəcək. Bu zaman ailədə və işdə müxtəlif çətinliklərin mümkünlüyünə hazır olmaq lazımdır.

Tərəzilərin yaradıcılıq və sevgi məsələləri üçün ilin 1-ci yarısı əlverişli olacaq. İlin ikinci yarısında Tərəzilər öz dediklərinə, yazdıqlarına, sosial şəbəkələrdə paylaşdıqlarına diqqətli olmalıdırlar. Yoxsa qanun onların əleyhinə işləyə bilər.

Əqrəbləri ilin 1-ci yarısında planların həyata keçməsi, sevgi, ailə və yaradıcılıq məsələlərində uğur gözləyir. Bu zaman hüquqi məsələlərin həlli, müqavilələrin imzalanması xeyir gətirəcək. İlin 2-ci yarısında sağlamlığa diqqət etmək, günəş və ay tutulmaları zamanı bir qədər ehtiyatlı olmaq məsləhət görülür.

Oxatanlar üçün 2022-ci il uğurlu il olacaq. Yaradıcılıq, xarici ölkələrə səyahətlər, dilləri dərindən öyrənmək və müxtəlif proyektlərdə onları uğurlar gözləyir. Oxatanların cəmiyyətdə hörməti və mövqeyi bu il xeyli yüksələ bilər.

Oğlaqlar qarşıdakı ilin ilk 5 ayı ərzində öz şəxsi və sosial məqsədlərini uğurla həyata keçirəcəklər. Bu zaman yeni başlanğıclar üçün çox əlverişlidir. Maydan sonra Oğlaqlar üçün ilin çətin, problemlər yarana biləcək dövrü başlanır. Bu vaxt qanunla konflikt, müqavilələrin pozulması ola bilər.

Dolça üçün ilin birinci yarısı mürəkkəb olacaq. Bu zaman dolçalar yalnız öz qabiliyyətlərinə, öz şəxsi imkanlarına arxalana bilərlər. İlin 2-ci yarısında vəziyyət xeyli yaxşılaşacaq, Dolçaların yeni biliklər almaq, gözəl münasibətlər başlamaq və maraqlı ideyalar üçün şansları artır.

Balıqlar üçün qarşıdakı ilin 1-ci yarısı təşəbbüslərin həyata keçirilməsi, yaradıcılıq, cəmiyyətdə mövqeyin möhkəmlənməsi üçün çox uğurlu olacaq. Bu gözəl şanslı ildə Balıqlar sağlamlıqlarına çox diqqətli olmağı unutmamalıdırlar.

## 2022-ci ildə pandemiya davam edəcəkmi?

2021-ci il pandemiyanın davam etməsi müxtəlif təbii fəlakətlər meşə yanğınları, qasırğalar baş verdi. Bu il artıq arxada qalmaq üzrədir. 2022 də bu vəziyyət davam edəcək. Daşqınların və bu kimi təbii fəlakətlərin olması sözsüz ki, labüddür. Pandemiyaya gəldikdə isə tamamilə aradan qalxması çətin məsələdir. Ancaq mart-aprel aylarında bütün dünyada Covid-19 dan dünyasını dəyişənlərin sayı xeyli azalacaq. Bu sahədə xeyli yüngülləşmə olacaqdır. İnsanların əvvəlki qorxusu olmayacaqdır. Karona artıq insanlara normal qrip kimi gələcək. Lakin karantin hələ də bizim həyatımızda olacaq.

## 2022-ci ildə cəmiyyətin iqtisadi vəziyyəti necə olacaq?

Təəssüflər olsun ki, son illər iqtisadi vəziyyət pisləşib. Bunun da əsas səbəblərindən biri Saturun və Uran arasındakı uzunmüddətli gərginliklərə səbəb olub. Uran 3 ildir ki, Buğa bürcünün üstündən keçir və buğa bürcü insanların maddi sərvətlərinə təsir göstərən bürcdür. Vəziyyətin stabilliyini pozur. Bu aspekt 2021-ci ildə özünü göstərdi. Buna görə insanların maddi vəziyyəti pisləşib. Təəssüflər olsun ki, bu vəziyyət iqtisadi gərginlik 2022-ci ildə davam edəcək. Lakin bu, fasilələrlə baş verəcək. İqtisadi gərginlik 2023-cü ilə doğru düzəlməyə davam edəcək.

***Qönçə Quliyeva***



## Son bir ildə təhsil sahəsində hansı yeniliklər baş verib?

"İlk növbədə qeyd edim ki, 2021-ci ildə "Rəqəmsal bacarıqlar" layihəsi ölkənin 250 məktəbinin 190 000-dən çox şagirdini əhatə etməsi mühüm hadisəsidir. Belə ki, bu, ötən ilə nisbətən 28 məktəb və 90 min şagird artımı deməkdir". Bu sözləri SİA-ya açıqlamasında təhsil eksperti Kamran Əsədov deyib. Onun sözlərinə görə, 2021-ci ildə ölkə üzrə 55 rayon və şəhərdə 850 icma əsaslı məktəbəqədər təhsil qrupu təşkil olunub: "Bu qruplara 16041 nəfər 3-4 yaşlı uşaq cəlb edilib. Bu, ötən ilə nisbətən 5 rayon, 350-ə yaxın qrup və 6835 nəfər uşaq artımı deməkdir".

"2021-ci ildə baxçaların yenidən Təhsil Nazirliyinə verilməsi və təhsil işçilərinin əmək haqlarının 20 faiz artmasını mühüm hadisə kimi qeyd edə bilərik". "Azərbaycan 2021-ci ilin sentyabrında tədrisi tam şəkildə pandemiya dövründə bərpa etdi ki, dünyada çox az sayda ölkə bunu edə bildi.

Azərbaycan məktəblilərinin beynəlxalq fənn olimpiyadalarında qazandıqları medalların sayı 2021-ci ildədaha da çox oldu". "2021-ci ildə Təhsil Tələbə kredit fondunun fəaliyyətə başlaması və tələbələrə kreditlərin verilməsini xüsusi ilə qeyd etməliyik. Bu addım ali təhsilin əlçatanlılığının artırılmasına mühüm təsir göstərib". "Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) təşkilatçılığı ilə "Zəfər yolu" devizi altında keçirilən UNEC İqtisadi Forumu 2021-ci ilin əhəmiyyətli hadisələrindəndir".

"Bakı Ali Neft Məktəbinin qurulmasından 10, Azərbaycan Dövlət Pedaqoji Universitetinin əsasənən qoyulmasından 100 illi ötməsi də 2021-ci ilə təsadüf edib". "Bakı Dövlət Universitetii 2021-ci ildə bir neçə universitetlə 2-li diplom layihəsini tətbiq edib və Dahi Nizami Gəncəvinin anadan olmasının 860 illiyi münasibəti ilə böyük beynəlxalq elmi konfranslar təşkil edib".

***Ayşən Vəli***

# Müzəffər Ali Baş Komandan və qalib əsgər vəhdəti!



## Prezident İlham Əliyev:

"Bu gün Azərbaycanın müzəffər ordusu dünyada məhz müzəffər, döyüş meydanında qalib gəlmiş ordu kimi tanınır"




ANALİTİK+AKTUAL

**Bu gün dünyanın diqqət mərkəzində olan və beynəlxalq aləmdə maraqla izlənilən reallıqlardan biri də budur ki, Azərbaycan dövləti bütün sahələrdə olduğu kimi, ordu quruculuğu, bütövlükdə isə hərbi sahədə əldə etdiyi nailiyyətləri ilə ardıcıl uğurlar əldə etməkdədir.**

Bu gerçəklik torpaqlarımızın düşmən işğalından azad olunması uğrunda 44 gün davam edən və Şanlı Zəfərimizlə başa çatan Vətən müharibəsi faktorunda da özünü kifayət qədər sübuta yetirmiş oldu. Və əslində, bəhs etdiyimiz reallıq amilinin kökündə, əsasında dayanan daha bir gerçəklik Silahlı Qüvvələrimizin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin Azərbaycan ordusuna göstərdiyi diqqət və qayğısıdır. Daha dəqiq desək, məhz bu diqqət və qayğının məntiqi nəticəsidir ki, gün Azərbaycan Silahlı Qüvvələrində əsgər-zabit münasibətlərindən tutmuş digər bütün önəmli mexanizmlər özünü ən yüksək səviyyədə sübuta yetirməkdədir - bunun təməlində isə bilavasitə Müzəffər Ali Baş Komandanın xüsusi diqqəti, tələb və tövsiyələri dayanmaqdadır.

Beləliklə, əgər biz ordu quruculuğu prosesindən danışırıqsa, inamla vurğulaya bilərik ki, illər boyu və elə də asan başa gəlməyən uğurlu işlərin prioritet elan olunması nəticəsiz qalmamışdır. Bütövlükdə isə ordu quruculuğu işində aparılan islahatlar, verilən qərarlar, vaxtında və yüksək səviyyədə həyata keçirilən strateji tədbirlər bu vacib sahədə zəruri irəliləyişlərin əldə olunması üçün mükəmməl stimul rolunu oynamışdır. Bundan əlavə, hərbi qulluqçuların sosial həyatlarının və tələbatlarının, təmin olunması yönündə həyata keçirilən işlər müasir dövrün ən yüksək meyarları səviyyəsində qurulmuşdur.

## Onların heç birinin gözləri arxada qalmırdı və bilirdilər ki, bu reallıqların təməlində Ali Baş Komandan, Prezident İlham Əliyev və sarsılmaz xalq birliyi gerçəkliyi dayanıb

Söz yox ki, Vətən müharibəsində biz daha əvvəl verilən mühüm qərarların, atılan məsədyönlü addımların nəticələrini Şanlı Zəfər yürüşündə müşahidə etdik. Və qeyd edilənlər xüsusunda biz daha bir diqqətçəkici, mühüm nüansa toxuna bilərik - Şanlı ordumuzun Sərkərdəsi, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı İlham Əliyevin istər 44 günlük müharibə dövründə, istərsə də ondan sonrakı zamanlarda işğaldan azad edilmiş ərazilərimizə etdiyi səfərlərində əsgər və zabit heyətləri ilə keçirdiyi görüşləri.

Bu görüşlərin hər biri isə Fateh Sərkərdə ilə əsgər vəhdətini təcəssüm etdirir. Bu yerdə biz Vətən müharibəsi dövründə cənab İlham Əliyevin hərbi hospitallara gedərək savaş meydanlarında yaralanmış əsgər və zabitlərimizlə görüşlərini xatırlaya bilərik.

Onların hər biri ilə ayrı-ayrılıqda, səmimi söhbətlər aparan cənab Ali Baş Komandan cəbhədə olan hərbçilərimizə böyük ruh yüksəkliyi bəxş edirdi. Onların heç birinin gözləri arxada qalmırdı və bilirdilər ki, bu reallıqların təməlində Ali Baş Komandan, Prezident İlham Əliyev və sarsılmaz xalq birliyi gerçəkliyi dayanıb.



## Prezident İlham Əliyevin son vaxtlarda verdiyi sərəncam və fərmanları artıq ordu quruculuğumuzun növbəti, daha mütəşəkkil mərhələyə keçidini təsdiq edir

Düşmən ölkədə isə biz bunu müşahidə etmirdik. Həmin ölkə başçısının pandemiyadan ehtiyat edərək yaralı əsgərlərlə məsafəli davrandığı, onlarla əllə görüşmədiyi halda, Azərbaycan Prezidenti əsgərlərlə səmimi görüşlər keçirir, onları bağrına basırdı. Bax, budur əsl Sərkərdə-əsgər vəhdətinin bariz nümunəsi!

Müharibədən sonra da ordumuzun gücləndirilməsi prosesi davam etdirilməkdədir. İşğaldan azad olunmuş ərazilərimizdə dünyanın ən müasir standartlarına cavab verən hərbi hissələrin açılışları, ön mövqelərdə qurulan müdafiə istehkamlarının yaradılması, hərbçilərimizin təchizat və s. tələbatlarının yerindəcə ödənilməsi, xüsusilə yeni silah-sursatların alınması, sərhədlərimizin möhkəm müdafiəsi üçün yaradılan şəraitlər belə qənaətə gəlməyə zəmin yaradır ki, proses uğurla davam etdirilir.

Və eyni zamanda, şəhid ailələrinə, qazilərimizə göstərilən dövlət qayğısı bu gün də məqsədyönlü şəkildə reallaşdırılmaqdadır. Habelə, Vətən müharibəsində şücaət göstərən hərbçilərimizə, zabit və generallarımıza verilən dövlət mükafatları da bu qəbildəndir. Prezident İlham Əliyevin son vaxtlarda verdiyi sərəncam və fərmanları artıq ordu quruculuğumuzun növbəti, daha mütəşəkkil mərhələyə keçidini təsdiq edir.

## Müzəffər Ali Baş Komandan: "Bu günə qədər 2200-dən çox hərbçi dövlət tərəfindən mənzillə təmin olunub"

Yeri gəlmişkən, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin Xocavənd rayonunun Hadrut qəsəbəsində komandolarımız üçün tikilərək istifadəyə verilmiş hərbi hissənin açılışındakı çıxışı zamanı vurğuladığı fikirləri və səsləndirdiyi bəyanatları bütövlükdə Azərbaycan ordusuna növbəti tükənməz ruh yüksəkliyi bəxş etdi.





Dövlətimizin başçısı bildirdi ki, hərbçilərin xidmət şəraitinin yaxşılaşdırılması ilə yanaşı, onların məişət-mənzil problemlərinin həlli də həmişə diqqət mərkəzində idi: "Bildiyiniz kimi, 20 il orduda qüsursuz xidmət etmiş hərbçilərə mənim Fərmanımla dövlət tərəfindən mənzillər verilir və bu günə qədər 2200-dən çox hərbçi dövlət tərəfindən mənzillə təmin olunub. Bu ilin sonuna qədər 130 hərbçi ailəsinə yeni mənzillər veriləcəkdir. Yəni, ordu dövlət tərəfindən, Prezident, Ali Baş Komandan tərəfindən daim diqqətlə əhatə olunub. Bu diqqət və qayğının nəticəsində bu gün Azərbaycanın müzəffər ordusu dünyada məhz müzəffər, döyüş meydanında qalib gəlmiş ordu kimi tanınır".

Artıq tam əminliklə qeyd edə bilərik ki, hərbi qulluqçularımız xalqın və dövlətin etimadını qazanmaq yolunda əllərindən gələni bundan sonra da əsirgəməyəcək, qazanacağımız böyük uğurlara yüksək döyüş hazırlığı ilə öz töhfələrini verəcəklər. Belə ki, Azərbaycanın bərpa edilmiş ərazi bütövlüyü və suverenliyi hər bir Azərbaycan əsgəri üçün mühüm həyat amalıdır.



## Bu qayğı böyük etimadla müşayiət olunur

Bu baxımdan, bir daha qeyd etmək yerinə düşərdi ki, şanlı Azərbaycan ordusunun əldə etdiyi qələbələrin arxasında, heç şübhəsiz, ölkə Prezidenti, Silahlı Qüvvələrimizin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin gərgin əməyi və davamlı qayğısı dayanır. Bu qayğı isə təbii ki, böyük tələb və etimadla müşayiət olunur. Ölkəmiz üçün tarixi məsələlərin həllinə yönəlmiş bu münasibəti Azərbaycan ordusunun şəxsi heyəti də dərindən dərk edir. Odur ki, gecə-gündüz əldə silah Vətənimizin keşiyində dayanan hərbçilərimiz şəxsən öz Fateh Sərkərdəsinin, Müzəffər Ali Baş Komandanın və xalqımızın etimadını doğrultmaq üçün bundan sonra da əlindən gələni edəcək, ölkənin işıqlı sabahı və bütövlüyü naminə öz döyüş hazırlıqlarını daim artıracaqlar.

***Rövşən RƏSULOV***








# 2022-ci ilin yeni sosial paketinin tərkib hissəsi

*Dövlət büdcəsindən maliyyələşən bir sıra təşkilatlarda çalışan işçilərin əməkhaqlarının artırılması vətəndaş amilinə verilən yüksək dəyərin bariz nümunəsidir*

Azərbaycan dünyaya yeni iqtisadi və sosial inkişaf modelini təqdim edir. Ölkəmizin yeni iqtisadi və sosial çağırışların müzakirəsi üçün ideal məkan kimi qəbul olunması da təkmil islahatlara, uğurlu sosial siyasətə əsaslanır. İqtisadi tərəqqi hər bir dövlətin hərtərəfli inkişafında əhəmiyyətli rol oynayır. Azərbaycanın iqtisadiyyatını düzgün əsaslar üzərində qurması daim rastlaşdığı hər bir çətinliyi uğurla həll etməsini şərtləndirir. 2008-ci ildə dünyanı bürüyən, nəticələri son illərə qədər davam edən iqtisadi və maliyyə böhranının ardınca 2019-cu ilin sonundan bu günədək davam edən koronavirus infeksiyası ilə mübarizə tədbirləri də ölkələrin malik olduqları imkanların təqdimatında mühüm rol oynadı. Onu da qeyd edək ki, ötən il COVİD-19-la mübarizə tədbirləri ilə yanaşı 44 günlük Vətən müharibəsini yaşadıq. Bütün bunlara baxmayaraq heç bir sosial layihə təxirə salınmadı, iqtisadi islahatlar daha da dərinləşdirildi. Hazırkı dövrdə işğaldan azad edilmiş ərazilərimizdə bərpa və quruculuq işləri həyata keçirilir. Cənab İlham Əliyev yalnız bu ərazilərin deyil, bütün regionların sosial-iqtisadi inkişafını sürətləndirmək üçün zəruri olan addımları atır. Baxmayaraq ki, COVID-19-la mübarizə insan sağlamlığı ilə bağlı məsələdir, təbii ki, görülən tədbirlər ölkələrin iqtisadi imkanlarına söykənir. Mübarizə tədbirlərinə başlandığı günlərdə əksər dövlətlər iqtisadiyyatın durğunluğunu aradan qaldırmaq üçün yollar axtarışına çıxdığı halda, Azərbaycan dövləti insanların sağlamlığının təmin olunmasını önə çəkdi, bu fonda iqtisadi islahatların dərinləşdirilməsinin prioritetliyini açıqladı. Dövlət başçısının 19 mart 2020-ci il tarixli Sərəncamına uyğun olaraq 20 fəaliyyət sahəsini, 4 sektoru əhatə edən 10 yardım proqramı həyata keçirildi. Sosial dəstək proqramlarının uğurlu icrası vətəndaş məmnunluğunun artmasında əhəmiyyətli rol oynadı. Cənab İlham Əliyevin bu müddətdə paytaxt və bölgələrdə açılışında və təməlqoyma mərasimlərində iştirak etdiyi sosial obyektlərin sayına və bugünümüz üçün önəminə diqqət yetirmək kifayətdir.

COVID-19-la mübarizə tədbirlərinin gücləndirildiyi müddətdə ölkə Prezidenti İlham Əliyevin və Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın hər an vətəndaşların yanında olmaları, onların sosial müdafiəsinin gücləndirilməsi, sosial xidmətin şəffaflığının təmin edilməsi istiqamətində atdıqları addımlar ictimaiyyət tərəfindən böyük rəğbətlə qarşılanır. Onu da qeyd edək ki, DOST Agentliyi Birinci vitse-prezident Mehriban Əliyevanın dövlət sosial xidmətlərinin vahid platformadan, ”bir pəncərə”dən, tam şəffaf və operativ, vətəndaş rahatlığı və nəzakətlilik prinsipi və sadə prosedurlar əsasında təqdim olunması təşəbbüsünün nəticəsidir. DOST Agentliyinin yaradılması ”ASAN xidmət”in müsbət tendensiyasının davam etdirilməsi məqsədini daşıyır. Bu cür mərkəzlərin yaradılması məşğulluğun artırılmasının, həm də ölkəmizin dayanıqlı inkişafının təmin olunmasına xidmət edir.

Dövlət siyasətinin təməlində vətəndaş amilinin dayandığı atılan hər addımda özünü qabarıq şəkildə büruzə verir. Sosial islahatlar proqramının əsas hədəfi də məhz dövlət sosial xidmətlərinin innovativ yanaşmalara əsaslanan modern, çevik və optimal mexanizmlər üzərində qurulması, xidmətlərdə sosial ədalət, şəffaflıq, ünvanlılıq, əlçatanlıq və bərabərlik prinsipinin qorunmasıdır. Dövlət başçısı İlham Əliyevin gördüyü bütün işlərin əsasında Azərbaycanın dövlət maraqları, ölkənin inkişafı, təhlükəsizliyinin və xalqın firavan həyatının təmin edilməsi amili dayanır. Prezidentin ”Əhalinin məşğulluğu, əmək, sosial müdafiə və təminat sahələrində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında” Fərmanı ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində yaradılan Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyinin məqsədi də hər bir Azərbaycan vətəndaşının yanında olmaq, məşğulluq, əmək, əlillik və sosial müdafiə sahələrində xidmətlərin keyfiyyətinin yüksəldilməsi, bu xidmətlərdə şəffaflığın artırılması, innovativ həllərin tətbiqi və vətəndaş məmnunluğunun təmin edilməsidir. Hazırda paytaxtda üç DOST Mərkəzi fəaliyyət göstərir. 2019-2025-ci illərdə Bakıda və ölkəmizin regionlarında 31 DOST mərkəzinin istifadəyə verilməsi nəzərdə tutulub.





Əhalinin rifah halının yaxşılaşdırılması əsas prioritetlər sırasındadır. Dövlət başçısı İlham Əliyevin 17 dekabr 2021-ci il tarixli ”Dövlət büdcəsindən maliyyələşən bir sıra təşkilatlarda çalışan işçilərin əməkhaqlarının artırılması haqqında” və Minimum aylıq əməkhaqqının məbləğinin artırılması və ”Minimum aylıq əməkhaqqının artırılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 18 iyun tarixli 1265 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə” sərəncamları da deyilənlərin təsdiqidir.

Prezident İlham Əliyevin yeni Sərəncamı ilə 2022-ci ilin əvvəlindən minimum aylıq əməkhaqqının 300 manata çatdırılması ilə əlaqədar əməkhaqları Vahid Tarif Cədvəli əsasında tənzimlənən işçilərin maaşları da bu artıma uyğun olaraq orta hesabla 20 faiz artırılacaq. Bu məqsədlə Nazirlər Kabineti həmin işçilərin tarif (vəzifə) maaşlarını minimum əməkhaqqı artımına uyğunlaşdırılmış şəkildə, əməyin ödənilməsinin dərəcələri üzrə artımlarla ifadə edən yeni cədvəli təsdiq edəcək. Gələn ilin əvvəlindən tətbiqinə başlanacaq həmin cədvəldə işçilərin maaşları hər bir dərəcə üzrə artırılmış məbləğlərdə əksini tapacaq. Həmçinin cədvəldə büdcədən maliyyələşdirilən müəssisə, idarə və təşkilatlarda tədris məşğələlərinin aparılmasına cəlb edilən işçilərin əməyinin saathesabı ödənilməsi məbləğləri də artırılacaq. Əməkhaqları Vahid Tarif Cədvəli əsasında ödənilən işçilərin sırasına dövlət büdcəsindən maliyyələşdirilən sosial, elm, təhsil, səhiyyə, mədəniyyət, gənclər və idman, kənd təsərrüfatı, ekologiya və ətraf mühitin mühafizəsi, mənzil-kommunal, nəqliyyat və rabitə, meliorasiya, su təsərrüfatı və balıqartırma sahələrində çalışanlar daxildir. Həmçinin dövlət orqanlarında çalışan, lakin dövlət qulluqçusu olmayan işçilərin maaşları da aidiyyəti dövlət orqanlarının kateqoriyaları üzrə müvafiq intervalda artacaq.Yeni ilin 1 yanvarınadək qüvvədə olan mövcud 19 pilləli Vahid Tarif Cədvəli üzrə əməkhaqlarının minimal həddi 250, maksimal həddi 906 manatdır. Təsdiqlənəcək yeni cədvəldə bu göstəricilərdə minimum əməkhaqqı artımına uyğun artımlar olacaq. Prezident İlham Əliyevin yeni ”Dövlət büdcəsindən maliyyələşən bir sıra təşkilatlarda çalışan işçilərin əməkhaqlarının artırılması haqqında” Sərəncamı 2022-ci ilin yeni sosial paketinin tərkib hissəsidir. Bu məqsədlə dövlət büdcəsindən 9 milyon manat illik əlavə vəsait nəzərdə tutulub. Bu təşkilatlarda ümumilikdə 4 min şəxs çalışır.

Göründüyü kimi, ölkənin iqtisadi imkanları güclü sosial siyasətlə müşayiət olunur. Dövlət başçısı İlham Əliyev 2003-cü ildə keçirilən andiçmə mərasimində əmək haqlarının, pensiyaların ildə ən azı iki dəfə artırılacağını bildirmişdir. Son 18 ilin sosial-iqtisadi göstəricilərinə diqqət yetirsək bu vədin də reallıqda öz əksini tapdığını böyük inamla qeyd edə bilərik.

***Yeganə Əliyeva***

# "Şuşanın Cıdır düzü qalib Liderin hər zaman xalqına arxalandığına şahidlik etdi"

**"Dövlət başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin tarixi Zəfərimizdən ötən bir ildən artıq dövrdə işğaldan azad edilmiş ərazilərimizə səfərlərinin hər biri tarixi hadisə kimi dəyərləndirilir. Bu səfərlərin hər biri müəyyən sosial obyektlərin açılışı və təməlqoyma mərasimlərinin keçirilməsi ilə yanaşı, dövlət başçısının bütün dünyaya ünvanladığı mesajlarla yadda qalır.**



30 ilə yaxın dövrdə işğal altında qalan, hər daşı, qayası tarix olan bu torpaqlarımızda ermənilərin törətdikləri vəhşilikləri, dağıntıları aradan qaldırmaq, onları əvvəlki simasına daha müasir şəkildə qaytarmaq üçün atılan addımlar hər birimizi qürurlandırır, belə güclü, qüdrətli ölkənin vətəndaşı olmağımızla fəxr edirik. Dövlət o zaman güclü, qüdrətli olur ki, onun xalqını sevən, xalqına güvənən, onun inamından güc alan Prezidenti var. Dövlət başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin hər an xalqının yanında olması, xalqdan güc alması, ona arxalanması atdığı hər addımında özünü nümayiş etdirir. Son 18 ildə keçilən yola nəzər salsaq bunun bir daha şahidi olarıq. Təkcə bir məqamı qeyd etmək kifayətdir ki, dövlət başçısı Regional inkişaf proqramlarının icrasını ilə yaxından tanış olmaq üçün bölgələrə səfər edərkən əsas istəklərindən biri problemləri, insanları narahat edən məsələləri onların dilindən eşitmək, insanların arasında olub onlarla səmimi müzakrələr aparmaq olub. Bu baxımdan işğaldan azad edilmiş ərazilərimizin bərpası və yenidən qurulmasına start veriləndə, şəhərlərimizin Baş Planları hazırlananda dövlət başçısı bu fikri xüsusi qeyd edir ki, nəzərdə tutulan işlər ictimaiyyətin müzakirəsinə verilsin və sonda həmin ərazilərin Baş Planları təsdiqlənsin. Xalqına güvənən Liderin qalibiyyəti şəksizdir. 44 günlük İkinci Qarabağ müharibəsi bunu bir daha təsdiqlədi." Bu fikirləri YAP Xətai rayon təşkilatının sədri, siyasi elmlər doktoru Vüqar Rəhimzadə SİA-ya açıqlamasında bildirib.

V.Rəhimzadə qeyd edib ki, Prezident İlham Əliyevin ad günündə işğaldan azad edilmiş ərazilərimizə - Xocavənd rayonunun Hadrut qəsəbəsinə və Qarabağın tacı Şuşamıza səfərlərinin böyük mənası var: "Burada bir məqamı xüsusi qeyd edək ki, dövlət başçısı Hadrutda hərbi hissənin açılışında iştirak edib. Bu mühüm addım bir daha təsdiqləyir ki, müharibədən sonra da ordu quruculuğu istiqamətində atılan addımlar davamlıdır. Orduya ayrılan xərclər azalmayıb, əksinə, artırılıb. Ordumuzun təchizatı ən müasir silahlar, texnikalarla təmin edilir. Həm hərbi texnika ilə təminat, həm hərbi xərclərin artırılması, eyni zamanda, hərbçilərin maaşlarının artırılması onu göstərir ki, müharibə başa çatsa da, ordu quruculuğu prosesi dayanmayıb. Azərbaycan Ordusu bundan sonra da öz peşəkarlığını və yüksək mənəvi ruhunu qoruyacaq".

"Hadrut qəsəbəsinin işğaldan azad edilməsi ilə Azərbaycanın döyünən ürəyi Şuşaya yol açıldı" söyləyən YAP Xətai rayon təşkilatının sədri vurğulayıb ki, dövlət başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qeyd etdiyi kimi, Şuşa əməliyyatı artıq bir dastana çevrilib. Dünyanın aparıcı ölkələrinin ali hərbi məktəblərində Şuşa əməliyyatı haqqında müzakirələr gedir, təhlillər aparılır: "Şuşada olmuş insanlar inana bilmirlər ki, Azərbaycanın qəhrəman övladları yüngül silahlarla qayalara dırmaşaraq mədəniyyət paytaxtımızı, Qarabağın tacı olan Şuşanı işğalçılardan azad etdilər. Şuşa 28 il işğal altında qalsa da əyilmədi, milli qürurumuzu, kimliyimizi qorudu. Gec-tez öz tarixi sahibinə qovuşacağına əmin idi. Bu əminliyə əsas verən təbii ki, Azərbaycanın müstəqilliyini daimi və dönməz edən, Vətənini, xalqını canından artıq sevən ulu öndər Heydər Əliyevin siyasi kursunu son 18 ildə bütün sahələrdə uğurla davam etdirən Prezident İlham Əliyevin hər bir vədini əməli fəaliyyəti ilə təsdiqləyərək Ümummilli Liderin 2003-cü ildə xalqa müraciətində əksini tapan inamın doğruldulmasıdır. Bu illər ərzində əsas amal, məqsəd ərazi bütövlüyümüzün bərpası, soydaşlarımızın doğma yurdyuvalarına qayıtması olub. Dövlət başçısının Şuşanın Cıdır düzündəki çıxışında bu məqamlara xüsusi diqqət yönəldilib. Möhtərəm Prezidentimiz bildirib: "Mən bu dəstəyi 2003-cü ildən - Prezident vəzifəsinə ilk dəfə seçiləndən bu günə qədər hiss edirəm. Bu dəstək mənə güc verir. Bu dəstək iradəmi möhkəmləndirir. Bu dəstək nəticəsində biz hamımız - bütün Azərbaycan xalqı böyük tarixi uğurlara imza atmışıq."

Vüqar Rəhimzadə qeyd edib ki, Prezident İlham Əliyevin Şuşaya budəfəki səfərinin bir özəlliyi də ondan ibarət idi ki, dövlət başçısının ad günü idi: "Prezident İlham Əliyev öz ad günlərini hər zaman Azərbaycan xalqı ilə birlikdə qeyd edir. Dövlət başçısı ad günlərində adətən sosial obyektlərin açılışında iştirak edir, məcburi köçkünlərlə və şəhid ailələri ilə görüşür. Bu cür əlamətdar günlərində Prezident şəhid ailələri üçün inşa edilmiş yeni evlərin açılışlarında, habelə yeni salınmış köçkün qəsəbələrində insanlarla görüşür. 50 illiyini məcburi köçkünlərlə bərabər Ağcabədidə qeyd edən Prezident İlham Əliyev 60 illiyini də Qarabağda - Şuşada keçirdi. Artıq bu mühüm hadisə Prezident İlham Əliyevin Şuşanın işğaldan azad edilməsi müjdəsini xalqa çatdırarkən ata vəsiyyətini yerinə yetirməsinin xoşbəxtliyini yaşadığını ifadə etməsinin növbəti nümayişi oldu. Son bir ildə Qarbağın tacı Şuşamıza 7 dəfə səfər edən Prezident İlham Əliyevin bu fikri də hər kəsi qürurlandırdı: Şuşa hər birimizi özünə çəkir."

"Bu bir ildə Şuşanın Cıdır düzündə Novruz tonqalı yandırıldı, iki dost, qardaş ölkənin-Azərbaycan və Türkiyənin müttəfiqlik sənədinin imzalanmasına şahidlik edildi, "Xarıbülbül" musiqi festivalı, Vaqif Poezidya Günləri ənənəsi bərpa edildi", söyləyən Vüqar Rəhimzadə bildirib ki, belə möhtəşəm tədbirlər Qarabağda, Zəngəzurda çox olacaq. Cıdır düzündən hər zaman birlik, həmrəylik mesajı ünvanlanacaq. Qarabağda Azərbaycan muğamı əbədi səslənəcək. Şuşa yalnız Azərbaycanın deyil, türk dünyasının mədəniyyət mərkəzi olacaq. Xalqımız bundan sonra bu torpaqlarda əbədi yaşayacaq.

# Azərbaycanda
## pensiya yaşı azaldılacaq?

Pensiya yaşı. Əksəriyyətin bu yaşa çatmaq arzusu böyükdür. Hər kəs istəyir ki, illərdir çəkdiyi zəhmətin bəhrəsini qocalanda görsün. Yaxşı pensiya alsın və bunun da müqabilində istirahətini və yaşayışını təmin etsin. Ancaq bəziləri bu pensiya yaşına çata bilmirlər. Çünki, ölüm getdikcə cavanlaşır. Pensiya yaşı isə əksinə, çoxalır. Qəribə bir tendensiya mövcuddur. Bəs pensiya yaşı azaldıla bilərmi?



Dünyada insanların sayı çoxaldıqca, ölüm cavanlaşır. Bu tendensiya elə ölkəmizdə də müşahidə olunur. Belə olan halda isə təbii ki, pensiya yaşının azaldılması məsələsi ortaya çıxır. Çünki, hazırda Azərbaycanda bu yaş həddi qadınlar üçün 62 il 6 ay, kişilər üçün 65-dir. Əksər insanların fikrincə indiki pensiya yaşı olduqca yuxarıdır. İqtsadçı ekspert Rəşad Həsənov bildirir ki, dünya təcrübəsində pensiya yaşının müəyyən edilməsi ilə orta ömür arasında asılılıq var. Ekspertin sözlərinə görə, ölkəmizdə gözlənilən orta ömür 76 -ya çatsa da, hazırda pensiya alanların bir çoxunun faktiki ömrü 71 yaşı keçmir.

Rəşad Həsənov deyir ki, pensiya yaşının yuxarı olması insanlarda həm də ümidsizlik yaradır, sosial siğorta haqqının ödənilməsinə marağı azaldır.Ekspert pensiya fonduna yığılan məbləğin taleyinə də aydınlıq gətirib.

Millət Vəkili Arzu Nağıyevin fikrincə isə pensiya yaşının azaldılması iqtisadi cəhətdən səmərəsizdir. Deputatın fikrincə pensiya yaşının müəyyən edilməsi xüsusi hesablamalarla aparılır. Yəni bu zaman bir neçə fakt əsas götürülür.

TARİX+FAKT

# Anası alban olan rus keşişi Qarabağ erməniləri haqqında

**"Qarabağ erməniləri, əslində, erməni deyillər, onlar ayrıca qəbilədirlər və qədimdə alban adlandırılıblar"**



**Pavel Aleksandroviç Florenskiy - 1882-ci ildə Azərbaycanda, Yevlaxda anadan olub, rus pravoslav kilsəsinin keşişi, ilahiyyatçısı, alimi və şairidir. 1930-cu illərdə ona qarşı sovet mətbuatında kampaniyalar aparılırdı. 1933-cü ildə həbs edilən Florenskiy beş aydan sonra 10 illik həbs cəzasına məhkum olunub, 1937-ci ilin 8 dekabrında isə güllələnib.**

SİA-nın məlumatına görə, Pavel Aleksandroviç Florenskiy haqqında yazılan mənbələrdə bildirilir ki, onun anası Gülüstanın alban məlikləri, Məlik-Beqlyarovlar nəslindəndir, atası isə rusdur. Florenskiy 1916-cı ilin 20 sentyabr ayında ailəsinə yazdığı məktubunda bu gün də aktual ola biləcək maraqlı məqama toxunub və qeyd edib: "Qarabağ erməniləri, əslində, erməni deyillər, onlar ayrıca qəbilədirlər və qədimdə alban adlandırılıblar. Ermənilər isə onları axvan adlandırır. Axvanların öz dilləri və ənənələri mövcuddur".

Digər məlumatda isə qeyd olunur ki, Ağsu, Şamaxı rayonlarında yaşayan ermənilər erməni dilini bilmirdilər, onların öz danışıq vasitələri - alban (mümkündür ki, udin) dilində olub. Yalnız sovetlər quruluşu hakimiyyəti ələ aldıqdan sonra onlar üçün erməni dilində məktəblər açılıb və qədim albanlar üzərində erməniləşdirmə siyasəti tətbiq olunub. Əslində isə erməniləşdirmə siyasəti çar zamanında da aparılıb və əbəs deyil ki, bu gün qədim alban kilsələrinin sonradan erməniləşdirilməsi faktları barədə də kifayət qədər dəlillər ictimaiyyətin diqqətinə çatdırılmaqdadır.

*Rövşən RƏSULOV*

# Əli Kərimlinin siyasi mədəniyyət defisiti

**Azərbaycan siyasətinə ikiüzlülüyü, xəyanəti, sosial şəbəkələrə təhqiri, söyüşü gətirən AXCP sədri Əli Kərimli və onun əqidədaşlarıdır. Bu şəxsin "Facebook"dakı oxucularının, "YouTube" kanalındakı izləyicilərinin, daha doğrusu, trollarının demək olar ki, böyük əksəriyyətinin rəyləri aqressiya, təhqir və söyüşlərdən ibarətdir. Təbii ki, bütün bunlar AXCP sədri və onun əqidədaşlarının "siyasi mədəniyyət"indən, zəif intellektlərindən və deqradasiyaya uğramış mənəvi-əxlaqi keyfiyyətlərindən irəli gəlir.**



Siyasi mədəniyyət anlayışını ilk dəfə politologiya elminə gətirən amerikalı politoloqlar Quarts Almond və Sidney Verba "Vətəndaş mədəniyyəti" əsərində siyasi mədəniyyətin cəmiyyətin siyasi sistemində, siyasi rejimlərdə rolunu çox yüksək qiymətləndirərək belə bir ümumi nəticəyə gəlmişdilər ki, demokratiyanın inkişafı, demokratik rejimin meydana gəlməsi və formalaşması hər şeydən əvvəl yüksək siyasi mədəniyyət tələb edir və onun sayəsində mümkündür. Sosial şəbəkələrdəki trollarının vasitəsi ilə cəmiyyətdə qarşıdurma, gərginlik, aqressiya, nifrət və kin təlqin edən Ə.Kərimli kimi psevdodemokrat özü də yaxşı bilir ki, siyasi mədəniyyət həm də mənəvi mədəniyyətin tərkib hissəsidir. Bu da dolayısı ilə o deməkdir ki, siyasətlə məşğul olan şəxslər zəngin və dərin mənəviyyata sahib olmalıdırlar.

Bu gün AXCP sədri Əli Kərimli və "Milli Şura"nın sədri Cəmil Həsənli kimilərin ətrafındakı tör-töküntülərin, muzdlu mirzələrin, "siyasi mühacir" adı ilə bəzi Qərb ölkələrində məskunlaşan mənəviyyatsız və heysiyyatsız məxluqatların nifrət nitqi zəminində açıq-aşkar zorakılıq çağırışlarının siyasətlə heç bir əlaqəsinin olmadığını ölkə ictimaiyyəti yaxşı bilir. Hamımız bilirik ki, bütün bunlar yalnız və yalnız anti-Azərbaycan dairələrin sifarişi və çirkli qrantları ilə ölkəmizdə kifayət qədər möhkəm təməllər üzərində bərqərar olan sabitliyi pozmaq, qarşıdurma yaratmaq, 44 günlük Vətən müharibəsindəki tarixi Qələbənin qazanılmasında mühüm rol oynayan milli birlik və həmrəyliyimizə ciddi zərbə vurmağa yönəlik, vahid mərkəzdən idarə olunan məqsədyönlü fəaliyyətdən başqa bir şey deyil. Bu gün Ə.Kərimli, onun yaxın adamı, "Milli Şura"nın rəhbəri C.Həsənli kimilərin əsas məqsədi odur ki, cəmiyyətdə gərginlik, qarşıdurma yaransın. Ə.Kərimlinin öz çirkin niyyətlərini həyata keçirmək üçün tərbiyəsiz və mənəviyyatsız trollardan məharətlə istifadə etdiyini də cəmiyyətimiz yaxşı bilir.

Məsələn, AXCP-nin Nərimanov rayon şöbəsinin təşkilati məsələlər üzrə keçmiş şöbə müdiri Ağaşirin Tanrıverdioğlu bir müddət əvvəl partiya funksionerlərinin gün ərzində 5-6 kompüter vasitəsilə yüzlərlə saxta profili idarə etdikləri faktını açıqlamışdı: "Bir adamın üzərinə getmək lazım gələndə birbaşa Əli Kərimli tərəfindən tapşırıq verilir. Vaxtilə İsa Qəmbər, Əli Kərimli və İlham Əliyevin namizədliyi ilə bağlı internetdə sorğu keçirirdilər. Yalnız bir səs vermək mümkün idi. Amma cəbhəçilər axışırdılar internetklublara. Saxta profillər yaradaraq səs verirdilər. Əldə saxlanmış hazır alətlər var. Bir neçə nəfər var ki, Əli Kərimlidən əmr gözləyir. Əmr verilən kimi, hamısı hücuma keçir. Kimi "məhv etmək" lazımdırsa, onun üzərinə gedirlər. Üzvlər konkret şəxslər tərəfindən bölünüb. İyrəncliklərə gedən üzvlərdən ibarət qruplar yaradılıb. Sosial şəbəkələrdə bu işə birbaşa Kərimlinin özü nəzarət edir. Özünün də evdə 5-6 kompüteri var. Ayrı-ayrı adlarla statuslar yazırlar. "Fake" profillər isə kifayət qədər çoxdur. Rəyasət heyətində elə şəxslər var ki, əllərinin altında onlarla saxta profil var. Ümumi götürsək, hazırda Əli Kərimlinin statuslarına gələn 4-5 min "like"dən saxtaları çıxsaq, 200-300 bəyənmə ancaq olar. 70-80 faiz saxta profildir. Göstəriş Əlidən Məmməd İbrahimə gəlir. Profil sındırmaq da adi hal alıb. Onlarda xüsusi kodlar var. Onun vasitəsilə ya profili bağlayırlar, ya da oğurlayırlar".

AXCP sədrinin keçmiş müşaviri Zərifə Məhəddinova partiyada ona qarşı əxlaqsız şantajdan sonra dözmədi və etiraf etdi ki, "saxta profillərdən şərh yazmaqdan bezib: "Sosial şəbəkədə AXCP sədrinin statuslarına dərhal dəstək verilməli, "təsdiq" şərhləri yazılmalı və beləliklə, "çoxminli elektorat" görüntüsü yaradılmalıdır. Hakimiyyətin bütün fəaliyyəti ləkələnməli, görülən real işlərlə bağlı istənilən informasiya qaralanmalı və "qurşaqdan aşağı" şərhlər yazılmalıdır. Əli Kərimliyə qarşı çıxan hər kəs, hətta AXCP üzvləri belə təhqir olunmalıdırlar"

Çox da uzağa getməyə ehtiyac yoxdur. Hər şey açıq-aşkar ortadadır

***Zahid Rza***



## "Rəsmi səviyyədə Fransanın tarixi keçmişini özünə xatırlatmağın vaxtıdır"

**"Bu günlərdə Ermənistanda olan Fransa prezidentliyinə namizəd, hazırda İl-de-Frans şəhər şurasının sədri, Respublikaçılar Partiyasının nümayəndəsi Valeri Pekres gizli şəkildə Qarabağa səfər edib. Fransanı təmsil edən nümayəndələr ilk dəfə deyil ki, Azərbaycan qanunvericiliyini pozaraq Qarabağ ərazisinə qanunsuz səfərlər edirlər". Bu fikirləri SİA-ya açıqlamasında politoloq Züriyə Qarayeva deyib.**

Politoloqun sözlərinə görə, bu səfər əslində bizim üçün heç də təəccüblü deyil: "Çünki, Fransa dövləti tarixi türk düşmənçiliyini yaddaşından silməyən, isti dənizlərə çıxışında hələ də Türkiyə, ümumilikdə türk birliyini özünə başlıca mane olaraq görən, əsrlərdir erməni terrorçularına qucaq asan dövlətdir. Təəccüb olan yalnız odur ki, belə bir dövlət hələ də Minsk qrupu adı altında vasitəçi missiyası statusunu daşıyır. Moderator ölkənin qərəzsiz və neytral olması gözlənilərkən Fransanın Ermənistanı açıq şəkildə himayə etməsi, üstəlik qanunsuz əməllərə yol verməsi hansı beynəlxalq hüququn çərçivəsinə sığır? Əgər, vasitəçi dövlət belə bir mövqedədirsə və biz buna göz yumuruqsa, Ermənistandan nə tələb edə bilərik? Bu dövlətin birmənalı şəkildə mandatından imtina olunmalı, diplomatik əlaqələrə təkrar baxılmalıdır".

Z.Qarayeva vurğulayıb ki, diplomatik reaksiyamız müvafiq şəxsləri qara siyahıya salmaqla kifayətlənməməlidir: "Bu günə qədər tarazlaşdırılmış xarici siyasət kontekstindən yanaşsaq da, Fransa təəssüf ki, ritorikasına davam etdi. Azərbaycanı hədələməkdən belə çəkinmədi. Düşünürəm ki, rəsmi səviyyədə Fransanın tarixi keçmişini özünə xatırlatmağın vaxtıdır. Əlcəzairdə müsəlmanların kəsilən başından futbol oynayan biz olmamışıq. Afrikada minlərlə insanı soyqırıma məruz qoyan biz deyilik. 21-ci əsrdə hələ də müstəmləkə siyasəti ilə vassal dövlətlərdən milyardlarla dollar xərac alan da biz deyilik. Sadəcə, bunları xatırlaması yetər Fransanın".

***Aysel Məmmədova***

## "Böyük sülh sazişinə qədər Paşinyana inanmaq olmaz"

***"Ermənistanın baş nazirinin mətbuat konfransında Qarabağın Azərbaycanın ərazi birliyinə aid olması ilə bağlı verdiyi açıqlamalar kosmopolit mahiyyətli bəyanatlar kimi qəbul edilməlidir. Ümumiyyətlə, Paşinyanın son vaxtlar istər Qarabağ, istərsə də Azərbaycan Ermənistan münasibətlərinin perspektiv inkişafı ilə bağlı açıqlamaları özünün ikili xarakteri ilə daha çox diqqəti cəlb edir". Bunu SİA-ya açıqlamasında politoloq Elşən Manafov deyib.***



Onun sözlərinə görə, Paşinyan bir tərəfdən nəqliyyat -kommunikasiya xətlərinin, xüsusilə, dəmir yollarının açılacağı ilə bağlı bəyanatlarla çıxış edir, Azərbaycanla böyük sülh sazişinin imzalanmasına hazır olduğunu bəyan edir, digər tərəfdən isə "Artsax"ın beynəlxalq birlik tərəfindən müstəqilliyinin tanınması üçün səylərin artırılması zəruriliyindən danışır: "Bu isə Paşinyan iqtidarının müstəqil siyasət yeridə bilməməsi amilindən irəli gəlir ki, bu da anlaşılandır. Paşinyan və komandası qlobal maliyyə mərkəzlərinin sifarişlərini yerinə yetirmək məcburiyyəti qarşısında olduğundan onun verdiyi bəyanat və açıqlamalara da bəlli mərkəzlərin Cənubi Qafqaza bağlı maraqlarından qaynaqlandığı da məlumdur. Paşinyan regionda məlum qüvvələr nisbətini Qərbin xeyrinə olaraq dəyişmək konteksində sifarişlər aldığından hazırda onun münaqişə və Qarabağın perspektiv statusu ilə bağlı verdiyi bəyanatlar da məlum layihələrin realizə edilməsində qlobal maliyyə mərkəzlərinin sifarişlərinin həyata keçirilməsinə hesablanıb".

E.Manafov onu da bildirdi ki, Azərbaycanla müharibədə məğlub olan Paşinyan bir tərəfdən məğlubiyyətin Ermənistanda doğurduğu siyasi, iqtisadi, sosial reallıqları nəzərə alır, digər tərəfdən isə Qarabağ ətrafında gedən danışıqlar BMT müstəvisindən ATƏT müstəvisinə qaytarılmasına çalışır: "Azərbaycanın hərbi, siyasi, diplomatik təzyiqinə duruş gətirə bilməyən Ermənistanın siyasi elitası qarşıdurmaya bölgədə maraqları olan digər tərəfləri də danışıqlar formatına qaytarılmasına nail olmaqla, birincisi vəziyyəti dəyişməyə, ikincisi geosiyasi reallıqları korrektə etməyə çalışır. Əsas məqsədi Rusiyanın regionda təsir dairəsini qapatmaq, Ermənistanı Qərbin nüfuz dairəsinə salmaq, Türkiyə-Rusiya, Rusiya-Azərbaycan münasibətlərində gərginlik yaratmaq, Qarabağ və onun ətrafında mövcud duruma Qərbin təsir imkanlarını yüksəltmək istəyir. Yaddan çıxartmaq lazım deyil ki, "Qarabağ Ermənistandır" kimi məlum ifadə məhz Paşinyana aiddir və məhz bu bəyanat danışıqların dalana dirənməsinə və tərəflər arasında 44 gün davam edən müharibənin başlanmasına səbəb olmuşdur. Bu mənada böyük sülh sazişini imzalayana və Azərbaycana qarşı ərazi iddialarından rəsmən imtina etməyənə qədər Paşinyana inanmaq olmaz".

***Gülyana***

**"Ermənistanın baş naziri erməni ictimaiyyətinə ilk dəfə onun haqqında məlumat verdi ki, əvvəlki erməni hakimiyyətləri necə inadkarlıqla və uzun müddət boyunca azərbaycanlı qaçqınların Qarabağın dağlıq hissəsinə qayıtmaq hüquqlarına malik olduqlarını gizlədirdilər". SİA xəbər verir ki, bu barədə Strateji və beynəlxalq araşdırmalar mərkəzinin direktoru Eldar Namazov rusdilli haqqin.az saytına verdiyi açıqlamasında bildirib.**



# "Paşinyan

## Ermənistanın əvvəlki hakimiyyətlərinin uzun müddət gizlətdiklərindən danışıb"

Nikol Paşinyanın Qarabağda yaşayan azərbaycanlıların hüquqları məsələsinin erməni tərəfindən mübahisə olunmadığı və mübahisə olunmayacağı barədə səsləndirdiyi sensasiyalı bəyanatını şərh edərkən Eldar Namazov əsasən qeyd edib ki, Ermənistanın baş naziri bu gün Rusiya sülhməramlılarının yerləşdikləri Qarabağın dağlıq hissəsində müharibədən sonrakı dövrdə həyatın müəyyən edilməsi baxımından həlledici məsələyə toxunub.



**Xankəndiyə, Xocalıya, Əsgərana və Qarabağın başqa yaşayış məntəqələrinə vaxtilə bu regionlarda yaşamış on minlərlə azərbaycanlılar və onların nəsilləri geri dönməlidirlər**

"Azərbaycanlı qaçqınların keçmiş DQMV-nin ərazisinə qayıtmaları ATƏT-in bütün sənədlərində qeyd olunub və ATƏT-in Minsk qrupu çərçivəsində aparılan danışıqlar zamanı Dağlıq Qarabağın gələcək statusunun müzakirəsində şərt kimi qoyulub", deyən politoloq xatırladıb ki, Ermənistanın əvvəlki iqtidarları bu fakt haqqında bacardıqları qədər susurdular. Ona görə də erməni ictimaiyyətində əvvəlcədən yanlış və inadkar düşüncə yaranıb ki, Dağlıq Qarabağın statusunu yalnız ermənilər və başqa heç kim müəyyən edə bilməz. Halbuki, vaxtilə erməni tərəfinin də qəbul etdiyi ATƏT-in Minsk qrupundakı sənədlərdə tamamilə başqa məsələlər haqqında danışılırdı. Azərbaycanın ikinci Qarabağ müharibəsindəki qələbəsindən sonra qaçqınların qayıtmaları Ermənistan-Azərbaycan münaqişəsinin tənzimlənməsi prosesində daha mühüm və müəyyənedici məsələ olaraq nəzərə alınır. Ona görə ki, 44 günlük müharibəyə qədər Qarabağın dağlıq hissəsində yaşamış erməni əhalisinin əhəmiyyətli hissəsi həmin əraziləri tərk edərək Ermənistana, Rusiyaya və başqa ölkələrə köçüblər.

İkinci Qarabağ müharibəsindən sonra regionun dağlıq hissəsində 20-25 minə yaxın erməni qalmışdı. İndi isə Xankəndiyə, Xocalıya, Əsgərana və Qarabağın başqa bir sıra yaşayış məntəqələrinə vaxtilə bu regionlarda yaşamış on minlərlə azərbaycanlılar və onların nəsilləri geri dönməlidirlər, belə ki, onların qayıtmaları üçün qəbul olunmuş və razılaşdırılmış beynəlxalq sənədlər mövcuddur və həmin səbədlərə əsasən buna hüquqları var.



### Dağlıq Qarabağın statusu haqqında, hətta teoretik söhbətlər etmək belə öz mənasını itirir

Məhz bununla da bağlı danışan Namazov 10 noyabr üçtərəfli bəyanatdakı razılaşmalar barədə Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrovun Dağlıq Qarabağın gələcək statusu haqqında jurnalistin sualına verdiyi cavabını olduğu kimi xatırladıb: "Bu barədə hələ ki, danışmaq tezdir, belə ki, bütün köçkünlər Qarabağa geri qayıtmalıdırlar və biz bu ərazilərdə etnik balansın necə olacağını bilmirik".

Namazovun fikrincə, rus diplomatiyası artıq onda açıq şəkildə təsdiq edirdi ki, azərbaycanlı qaçqınların geri dönmələrindən sonra Dağlıq Qarabağın statusu haqqında, hətta teoretik söhbətlər etmək belə öz mənasını itirir. Politoloq Ermənistanın baş naziri Nikol Paşinyanın bu tezisi təkrarladığını deyib və qeyd edib ki, erməni baş nazir bu vasitə ilə öz ictimaiyyətinə azərbaycanlı qaçqınların geri dönmələri vacibliyini izah edib və bu, münaqişənin tənzimlənməsində mühüm bənddir. Paşinyan faktiki olaraq öz həmvətənlərini illüziyalardan uzaq olmağa və Qarabağın dağlıq hissəsini Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi kimi tanımağa çağırıb.

Paşinyanın çıxışı Qarabağda yaşayan ermənilərdə gözlənilən şoku yaratdı və politoloqun sözlərinə görə, müvafiq məsələ ilə bağlı etirazlar uzağı stəkanda fırtına effektindən başqa heç nə olmayacaq. Belə ki, beynəlxalq hüquq, beynəlxalq ictimaiyyətin mövqeyi, 2020-ci ilin 10 noyabrında Moskvada imzalanmış üçtərəfli razılaşma mövcuddur və bütün bu sənədlərdə azərbaycanlı qaçqınların, onların nəsil nümayəndələrinin Qarabağın dağlıq hissəsindəki doğma ocaqlarına qayıtmaları birmənalı hüquqları kimi tanınmaqdadır.

### Əgər erməni tərəfi erməni qaçqınların Bakıya, Gəncəyə və Azərbaycan şəhərlərinə qayıtmaları barədə danışmaq istəyirlərsə...

Eldar Namazov İrəvanda azərbaycanlıların Qarabağın dağlıq hissəsinə geri dönmələrinin yalnız ermənilərin Bakıya və başqa Azərbaycan şəhərlərinə qayıtmalarından sonra mümkün ola biləcəyi ilə bağlı səslənən ayrı-ayrı bəyanatlara da şərh verərək deyib ki, bu tezisin əsassızlığı ondan ibarətdir ki, ATƏT-in Minsk qrupu çərçivəsində deməк olar ki, otuz il aparılan danışıqlar prosesində qaçqınlar dəqiqliklə iki kateqoriyaya bölünmüşlər: Qarabağdakı münaqişə ərazisindən olan qaçqınlar və digər ərazilərdən olan qaçqınlar. Bu həlldə birinci məsələnin ikinci məsələdən asılı saxlanılması cəhdi, hətta teoretik uğur şansına belə malik deyil. Eyni zamanda, əgər erməni tərəfi erməni qaçqınların Bakıya, Gəncəyə və Azərbaycan şəhərlərinə qayıtmaları barədə danışmaq istəyirlərsə, onda biz də müvafiq şəkildə otuz il əvvəl İrəvan da daxil olmaqla Ermənistanın iyirmi yaşayış məntəqəsindən və digər erməni şəhərlərindən qovulmuş bir neçə min azərbaycanlı qaçqınların doğma ocaqlarına geri dönmələrini tələb edəcəyik.

### İrəvandan səslənən pafoslu və isterik bəyanatların heç kiçik rolu belə yoxdur

Ekspertin sözlərinə görə, azərbaycanlıların Qarabağın dağlıq hissəsinə geri dönmələri qeyd-şərtsizdir və alternativi yoxdur, belə ki, bu imkan ermənilərə verilib - məlum olduğu kimi, ikinci Qarabağ müharibəsindən sonra Ermənistana qaçan erməni əhalisi maneəsiz şəkildə Qarabağ ərazisinə geri dönüblər. Məhz bu şəkildə, birmənalı olaraq və maneəsiz bütün azərbaycanlı köçkünlər də geri qayıtmalıdırlar.

"Azərbaycanlıların geri dönmələri hüquqları mübahisə, ya da müzakirə predmeti ola bilməz", deyə Eldar Namazov bildirib. Onun sözlərinə görə, zaman-zaman İrəvandan səslənən pafoslu və isterik bəyanatların heç kiçik rolu belə yoxdur. Söhbət postmünaqişə dövründə Qarabağda dinc həyatın qurulmasından gedir ki, artıq yaxın vaxtlarda BMT-nin Qaçqınlarla iş üzrə Ali komissarının iştirakı ilə bütün bunlar realizə olunmağa başlayacaq.

***Rövşən RƏSULOV***



## "Pekressin Qarabağa getməsi beynəlxalq hüququn kobud şəkildə pozulmasıdır"

**"Fransa prezidentliyinə namizəd Valeri Pekressin Azərbaycanın icazəsi olmadan Qarabağa getməsi beynəlxalq hüququn kobud şəkildə pozulmasıdır. Ermənistan istisna olmaqla bütün dünya dövlətləri, o cümlədən, Minsk Qrupunun həmsədri olan Fransa dövlətimizin ərazi bütövlüyünü tanıyır. Bu səbəbdən Azərbaycan ərazisinə gəlmək istəyən hər bir xarici vətəndaş bunu bizə bildirdikdən və yalnız razılıq aldıqdan sonra ölkəmizə səfər edə bilər". Bunu "Səs" qəzetinə açıqlamasında ANAP-ın sədri Abutalıb Səmədov bildirib.**

Onun sözlərinə görə, beynəlxalq hüququn bu tələblərinə hər bir dövlət, ilk növbədə, Minsk qrupunun həmsədri olan Fransa xüsusi diqqət göstərməli və əməl etməlidir: "Fransada gələn ilin aprelində keçirilməsi nəzərdə tutulan prezident seçkiləri ərəfəsində prezidentliyə namizədlərin ermənilərin xoşuna gəlmək üçün dəridən-qabıqdan çıxması nə ilə əlaqədardır? Məlumdur ki, Fransada 750 min erməni yaşayır və bu ölkə əhalisinin təqribən 1 faizini təşkil edir. Bu son dərəcə kiçik rəqəmdir və buna görə Cənubi Qafqazın lider dövləti Azərbaycanla münasibətləri pozmaq ilk baxışdan son dərəcə ağılsız hərəkət kimi görünür. Ancaq say o qədər çox olmasa da erməni lobbisi Fransada çox güclüdür və yüksək səviyyədə təşkil olunub. Təkcə ermənilər içərisində deyil, əhalinin digər qrupları arasında da onlar iş aparmağı bacarırlar. Ona görə də seçkilərdə iştirak edən hər bir namizəd erməni lobbisinin dəstəyini almağa çalışır. İki prezidentliyə namizədin- Erik Zemmurun və Valeri Pekressin Ermənistana gəlməsi və ermənilərin xoşuna gələn bəyanatlar verməsi, eyni zamanda, hazırkı prezident Emmanuil Makronun gözlənilən səfəri məhz bu amillə bağlıdır".

A.Səmədov onu da bildirdi ki, bizi narahat edən məqam bir də onunla bağlıdır ki, hər iki namizədin seçkiləri udmaq şansları var və bu cür nəticə Azərbaycana müəyyən problemlər yarada bilər: "Ancaq biz çox ermənipərəst Fransa prezidentlərini gördük və onların göstərdikləri cəhdlərin qarşısını ala bildik. Kimin seçilməsindən asılı olmayaraq bundan sonra da heç kimə maraqlarımıza zərər verən addımlar atmağa imkan verməməliyik. Bu məqsədə nail olmaq üçün isə birliyimizi daha da möhkəmləndirmək zəruridir".

***Gülyana***

TƏRS BAXIŞ

# Radikal

## müxalifət partiyalarının gəlir bəyannamələrini verməmək şakərləri

### Müsavat partiyasının başqanı Arif Hacılı da bu sıralamada liderlik mövqeyini qoruyub-saxlayır

**Öz təbirlərincə ictimai rəyə "ağıl öyrətdiklərini" sanan, ümummilli məsələlərdə isə yaxalarını kənara çəkib dövlət maraqları əleyhinə fəaliyyət gösətərən AXCP, Müsavat kimi partiyaların rəhbərləri pərçimləndikləri sədarət kreslolarına elə aludə olublar ki, zaman-zaman təşkilatlarının gəlir bəyannamələrini xalqa açıqlamaqdan da boyun qaçırırlar. Halbuki, onların partiyalarında "siyasi fəaliyyət" pərdəsi altında daha hansı qanunsuz əməllərlə məşğul olmaları, təşkilatlarını şəxsi biznes məkanlarına çevirmələri haqqında da kifayət qədər faktlar, dəlillər və sübutlar mövcuddur.**

**Və bu yerdə Kərəmi ağlamaq, Əslini isə gülmək tutur...**



Daha bir maraqlı məqam budur ki, antimilli xüsusiyyətləri və pul-para eşqləri onların başlarını elə qarışdırıb ki, öz gözlərindəki tiri görməyə-görməyə hakimiyyətə qarşı ittihamlar səsləndirir, üstəgəl özlərini "aydanarı, sudan duru" kimi göstərməyə çalışırlar. Hansı ki, qaranlıq əməllərini araşdırdığımız zaman bu ünsürlərin daha hansı "yuvaların quşları" olması insanları heyrətləndirir...




Bütün bunlar öz yerində. Amma bu yaxınlarda müsavatçıların başbiləni Arif Hacılının "Amerikanın Səsi"nə verdiyi açıqlamasındakı fikirlərinə istehzasız yanaşmamaq olmur. Onun sözlərinə görə, məmurların gəlirləri, əmlakları barədə bəyannamə verməməsi korrupsiyanın inkişafı üçün çox ciddi yol açır. Və bu yerdə Kərəmi ağlamaq, Əslini isə gülmək tutur - yəni maraqlıdır ki, öz adı dəfələrlə (!) mühacir alverində, saxta arayış vermək və s. kimi bənzər korrupsiya əməllərində hallanan Arif Hacılı həmin ifadələrini səsləndirərkən bunu hansı üzlə edir? Yəni bu, insanda az da olsa utanan sifət, yaxud vicdan hissi mövcud deyilmi? Belə ki, bu günün özündə yalnız onu tanıyanlar deyil, həm də siyasətlə maraqlanan ictimai rəy də bilir ki, Arif Hacılı Müsavatın başqanı adı altında bazarkomluqla məşğuldur və bazarı da əməlli-başlı işləyir.

**Müsavatın bazarkomu Arif Hacılının birbaşa xeyir-duası və razılığı ilə!**

Yeri gəlmişkən, nə zamansa Sevinc Osmanqızı öz etirafında demişdi ki, Müsavat başqanı Arif Hacılının göstərişi ilə müsavatçı funksionerlər saxta viza alverində iştirak ediblər: "Etiraf edim ki, mən bunu ciddi miqyaslı problem kimi qəbul etmirəm. Bu alverin həcmi nə qədərdir ki? Nə qədər məbləğdən söhbət gedir? Olsun 500 min, 1 milyon, 5 milyon. Axı, buradakı yeyinti böyük olmayacaq...". Yaxud, 2019-cu ildə Arif Hacılı Frankfurt səfəri zamanı özü ilə Avropada saxta "siyasi mühacir" statusu almaq istəyən şəxslərə satmaq niyyəti ilə 72 ədəd Müsavat "diplom"u aparıb. Nəticədə siyasi partiyasının maraqlarını bir kənara ataraq, bazar maraqlarını güdən və Müsavat adından saxta diplom alverini reallaşdıran Arif Hacılı 72 ədəd diplomun hərəsini 500 avroya sataraq ümumilikdə şəxsi büdcəsinə 36 min avro əlavə etmiş olub. Müsavatın tör-töküntüləri də 3-10 min avro arası ödəmə qarşılığında insanları qaçaq yollarla Almaniyaya aparıblar.



**Üstəlik, ortaya digər faktlar da çıxıb ki, sən demə, Müsavat partiyasının Avropa koordinasiya mərkəzinin sədri İlham Həsəni bir gündə 80 (!) saxta vəsiqə verib. Və təbii ki, Müsavatın bazarkomu Arif Hacılının birbaşa xeyir-duası və razılığı ilə!**

Əlbəttə ki, bütün bazarlarda olduğu kimi, bazara çevrilən Müsavatın da gəlir-çıxar, mədaxil-məxaric kitabları mövcuddur. Amma onlar ciddi-cəhdlə xalqdan gizlədilir və əlbəttə ki, qanunsuz əməllər olduğu üçün bəyannaməyə qeyd olunmurlar. Bütün bunlar isə Arif Hacılının özünün də işlətdiyi əməllərinin qanunsuz, eləcə də korrupsiya məqsədli olduğunu çox yaxşı bildiyi faktını olaraq ortaya qoyur. Bilir ki, həmin gəlir mənbələrini bəyannaməyə yazarsa, dərhal qanun qarşısında cavab verməli olacaq, rəsmi qaydada. Amma onun haqqındakı faktlar onsuz da müvafiq yerlərdə nəzarət altındadır və zamanı çatanda korrupsiya əməlləri barədə onlara hesabatını verməli olacaq.

**Ölümündən sonra belə adından sui-istifadə etdikləri Vurğun Əyyubun partiyadan uzaqlaşmasının əsl səbəbi üzvlük haqqını gecikdirməsi ilə bağlıymış...**

İndi isə keçək digər fakta - Müsavatın bazarkomu qeyd edilən məsələlərlə yanaşı, həm də partiyasındakı üzvlük haqqında da heç bir hesabat təqdim etmir. Ən acınacaqlı və heç bir insani dəyərlərə sığmayan əsas fakt isə, ümumiyyətlə, bu adamların hansı məzhəbə qulluq etmələrini böyük sual altında qoyur. Belə ki, partiyanın yaradıcılarından hesab olunan, Müsavatda, sözün əsl mənasında, can qoyan və ömrünün sonlarında apardığı işlərinə rəğmən haqq eləmədiyi hörmətsizliyi görən Vurğun Əyyubun başına gətirilənləri xatırlada bilərik. Kimsədən gizli deyil ki, bu gün öz ucuz siyasi çıxarları üçün ölümündən sonra belə adından sui-istifadə etdikləri Vurğun Əyyubun partiyadan uzaqlaşmasının əsl səbəbi üzvlük haqqını gecikdirməsi ilə bağlıydı (?!). İndi təsəvvürünüzə gətirin ki, hətta beş-üç manata görə bir-birlərinə quyu qazan bu ünsürlər iddia etdikləri hakimiyyətə Allah eləməmiş yiyələnib-eləsələr ölkədə nələr baş verər..!

Daha bir arqumentli sual - müsavatçıların bazarkomu Arif Hacılı orada-burada çıxış edərkən bəh-bəhlə iddia edir ki, partiyasının guya 10 minlərlə üzvü var və s. SUAL: onda nəyə görə müsavatçılar MSK-ya verdikləri hesabatlarında illik üzvlük haqqı gəlirlərini 3788 manat həcmində göstərirlər? Bir nəfər üçün aylıq 1 manatdan üzvlük haqqı toplansa, 10 min üzv üçün aylıq 10 min, illik isə 120 min manat deməkdir. Bəs, niyə 3788 manat? Yaxud, yerdə qalanları hanı? Deməli, ya Müsavatın partiya olaraq ümumiyyətlə Arif Hacılının iddia etdiyi kimi on minlərlə üzvü-filanı yoxdur, ya o gəlirlərini mənimsəyir, ya da partiyanın maraqları demokratik prinsiplərə söykənmir və oradakı diktatorluq rejimi, avtoritar idarəçilik mexanizmi şəffaflıq faktorlarını ayaq altına atır. İndi deyin görək, korrupsiya əməllərinə yol verən kimdir?

*Rövşən RƏSULOV*

---

# "Fast Fud"ların insan orqanizminə zərərləri HANSILARDIR?

"Fast Fud" (Fast Food) qidalarının orqanizmə zərərlərinin hər yaşda fərqli təsiri olur. Ən zərərli yaş dövrü 25 yaşa qədər olan orqanizmadır ki, bu yaşa qədər insan bədəni inkişaf prosesində olur və həyat funksiyalarını yerinə yetirməsi üçün 40-dan 70-ə qədər makro və mikro elementlər alır". Bu sözləri SİA-ya açıqlamasında sağlam qidalanma mütəxəssisi Məşhəti Hüseynova bildirib. Onun sözlərinə görə, bu elementləri də biz sağlam qidalar nəticəsində alırıq. "Bəzən gənclər vaxt çatışmamazlığından səhər yeməyindən imtina edərək, birbaşa günün orta saatlarında səhər yeməyi ilə nahar yeməyini bir araya qataraq, həmin "fast fud"larla qidalanırlar. Bununla da, biz orqanizmimizə çox böyük zərbə vurmuş oluruq. Ayaqüstü qidaların zərərlərini saymaqla bitməz. Amma əsas zərərlərdən biri də mədə-bağırsaq və həzm sistemində pozulmalar yaranır. Çünki həmin qidaların mənşəyi, təmizliyi, hansı vəziyyətdə bişirilməsi haqqında dəqiq məlumat yoxdur. Əksər hallarda əti alovla yaxın bir təmas bişirmək adı altında yandırırlar, bu da xərçəng xəstəliyinin inkişafına səbəb olur.

Dönərlərdə zəhərlənmə hadisələri tez-tez baş verir. Bunun da səbəbi dönərlərin içərisinə vurulan moyonez və ketçupun köhnə olub bir-birilə reaksiyaya girməsi nəticəsindədir. "Fast fud"ların digər zərərli bir cəhəti də ondadır ki, həmin qidalardan istifadə edərkən tez bir şəkildə qidalanırlar. Lakin yeməyi ən azından 10-15 dəqiqə ərzində çeynəmək lazımdır ki, doyma siqnalı beyinə getsin və orqanizm həmin qidadan faydalansın.



Son dövrlərdə insanlarda hormonal pozuntular, sonsuzluq xüsusilə erkən yaşına çatmış oğlan uşaqlarında süd vəzlərinin böyüməsi, şəkər, ürək-damar xəstəlikləri və s. kimi problemlər meydana gəlmişdir. Bunun da əsas səbəbi kimi şişirdilmiş broyler toyuqlarına vurulan antibiotiklər və kimyəvi dərmanları göstərmək olar. Ümumilikdə yaxşı olar ki, "Fast Fud" qidalarından imtina olsun, insanlar sağlam və lifli qidalara üstünlük versinlər. Əgər vaxt yoxdursa ayaq üstü cərəzlərdən, meyvə qurularından isdifadə etsinlər".

*Banuçiçək Hüseynli*

MÜTƏXƏSSİS AÇIQLADI

# Xorvatiyanın sabiq prezidenti:
# "Beynəlxalq hüquq Azərbaycanın tərəfindədir"

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi" istiqaməti çərçivəsində hazırlanıb.*

## İvo Yosipoviç: "Biz İlham Əliyevin Ermənistanla sülhü möhkəmləndirmək və ümumi dil tapmaq səylərini dəstəkləyirik"



**Xorvatiya Respublikasının keçmiş prezidenti (2010-2015), elmlər doktoru, Zaqreb Universitetinin fəxri professoru İvo Yosipoviç "Caliber" analitik mərkəzinə müsahibəsi**

***- Xorvatiya ilə Azərbaycan arasında ikitərəfli münasibətləri necə qiymətləndirirsiniz?***

- Xorvatiya ilə Azərbaycan arasında siyasi əlaqələr əladır! Son illər Azərbaycan Prezidenti İlham Əliyev bir neçə dəfə prezidentlərimizlə, baş nazirlərimizlə görüşüb. Xorvatiyanın Prezidenti kimi Bakıda Prezident Əliyevlə görüşmək imkanım oldu və o, Xorvatiyaya rəsmi səfər etdi. Bir neçə çoxtərəfli tədbirlərdə də görüşdük.



İqtisadi əməkdaşlığımız da nisbətən yaxşıdır, lakin mədəni və elmi əməkdaşlığımız daha yaxşı ola bilər.

Enerji əməkdaşlığın ən vacib sahəsidir. Həmçinin, bununla yanaşı, əməkdaşlığın çox perspektivli sahələri turizm, kənd təsərrüfatı, tikinti, yüksək texnologiyalar və İKT-dir.

***- VIII Bakı Qlobal Forumunda iştirak etmisiniz. Siz bunu necə qiymətləndirirsiniz?***

- Bakı Qlobal Forumu bu qəbildən olan ən mötəbər tədbirlərdən biridir. Dünyanın hər yerindən bir çox görkəmli siyasət, iqtisadiyyat, mədəniyyət və elm xadimləri buraya toplaşır və müasir dünyanın ən mühüm problemlərini müzakirə edirlər. Forum ildən-ilə daha da yaxşılaşır. Bundan əlavə, onun təşkilatçısı Nizami Gəncəvi Beynəlxalq Mərkəzi bir çox ölkələrdə tanınmış tərəfdaşları olan, mühüm beynəlxalq təşkilatlarla əməkdaşlıq edən dünya miqyasında tanınan təşkilatdır. Forum və Mərkəz bəşəriyyətin qlobal maraqlarına uyğun çalışan və Azərbaycanın nüfuzuna böyük töhfə verən çox mühüm qurumlardır. Təkmilləşdirmək üçün forum hər il müxtəlif ölkələrdən ən uyğun iştirakçıları dəvət etməlidir.

***- Azərbaycanda ən çox nəyi bəyəndiniz?***

- Mən Azərbaycanda dəfələrlə olmuşam. Avropa Şurasının eksperti kimi ilk səfərim 2000-ci ildə olub. O vaxtdan bəri iqtisadiyyatda, mədəniyyətdə, memarlıqda inanılmaz irəliləyiş var. Memarlıq və mədəniyyətdə yeni, hətta çox müasir tendensiyaların və ənənəvi elementlərin birgə mövcudluğu məni heyrətə gətirir.

***- Xorvatiyada azərbaycanlı tələbələr üçün təhsil proqramları varmı?***

- Xorvatiyada xarici dillərdə, əsasən də ingilis dilində bir çox universitet proqramları var. Onlar demək olar ki, bütün ölkələrdən olan tələbələr üçün mövcuddur. Tələbə və müəllim mübadiləsi üçün ikitərəfli müqavilələrin olması vacibdir. Bu gün Xorvatiyada Azərbaycandan nə qədər tələbənin olduğunu bilmirəm. Hökumətlər universitetləri birbaşa əlaqələr qurmağa həvəsləndirməlidir. Bundan əlavə, konkret ümumi tədqiqat layihələrinin yaradılması çox yaxşı olardı.



***- Bakıda fəaliyyət göstərən Xorvatiya şirkətləri çoxdurmu?***

- Çox yox. Ticarət birjamız mülayimdir və üstəlik, balanslaşdırılmış deyil. Bəzi illərdə Azərbaycana olan ixracımız oradan olan idxalımızdan təxminən 10 dəfə az idi. Bizim iri qida istehsal edən şirkətimiz "Podravka" uzun müddətdir ki, Azərbaycanda fəaliyyət göstərir. Azərbaycana hərbi texnika ixrac edən "Geofoto" və "Sestan-Buş" şirkətlərinin də adını çəkə bilərəm.

***- Xorvatiya Qarabağ münaqişəsi haqqında nə bilir? Xorvatiya mətbuatında necə təqdim olunur?***

- Fikrimcə, siyasi müstəvidə, eləcə də mediada Qarabağ münaqişəsinə realist yanaşma var. Aydın bir anlayış var ki, beynəlxalq hüquq Azərbaycanın tərəfindədir. Uzun illər beynəlxalq hüquqa məhəl qoymamasından və Ermənistanın BMT qərarlarına tabe olmaq istəməməsindən sonra hərbi yoldan başqa həll yolu yox idi. Azərbaycanın sözsüz ki, ərazi bütövlüyünü bərpa etmək hüququ var idi. Mənim Ermənistanla daimi və ədalətli sülh üçün dialoqun zəruriliyini vurğulayan Prezident Əliyevi dinləmək imkanım oldu. İki ölkə liderlərinin son görüşləri hadisələrin belə inkişaf edəcəyinə ümid verir.

Təbii ki, Xorvatiya siyasətçiləri və mediası 44 günlük müharibənin gedişatını, xüsusən də beynəlxalq hüquq nöqteyi-nəzərindən vəziyyəti başa düşərək izlədilər. Müharibə təcrübəmiz var və müharibə zamanı insanların çəkdiyi əzab-əziyyəti özümüzdən bilirik. Biz Prezident İlham Əliyevin Ermənistanla, xüsusən də Azərbaycanın Qarabağ bölgəsində yaşayan ermənilərlə sülhü möhkəmləndirmək və ümumi dil tapmaq səylərini dəstəkləyirik.

Ümid edirik ki, daha müharibə olmayacaq, Azərbaycanın ərazi bütövlüyünün dəstəklənməsi üçün beynəlxalq hüquq normaları tətbiq olunacaq.

***Tərcümə - Elçin Bayramlı***

# Ronaldo - bütün zamanların ən yaxşı bombardiri



**Avropa Klubları Assosiasiyası (ECA) və Avropa Futbol Agentləri Assosiasiyasının (EFAA) təsis etdiyi "Globe Soccer Awards" versiyasına əsasən, Portuqaliya millisinin və "Mançester Yunayted"in futbolçusu Kriştiano Ronaldo bütün zamanların ən yaxşı bombardiri seçilib.**

Belə ki, 36 yaşlı portuqaliyalı ulduz futbolçu bu il 46 qol vurub, həmçinin peşəkar karyerasında 800-cü dəfə fərqlənib. Ronaldodan bu il yalnız Kərim Benzema (47), Kilian Mbappe, Erlinq Haaland (hər biri 49) və Robert Levandovski (69) daha çox qol vurub. Qeyd edək ki, Ronaldo 2021-ci ilin avqustundan keçmiş komandası olan "Mançester Yunayted"ə qayıdıb və hazırda "qırmızı şeytanlar"ın şərəfini qoruyur.

«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR



1 .Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Kaspi Mətbuat Yayım – 0125106196, 0502685868
9. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

## Dünya birjasında qızıl və gümüş bahalaşdı

Nyu-Yorkun COMEX əmtəə birjasında qızılın bir troya unsiyasının spot qiyməti 0,09% azalaraq 1 810,55 ABŞ dollarına bərabər olub. SİA bu barədə birja məlumatlarına istinadən xəbər verir. Dekabrın 27-də qızılın fevral müqaviləsinin qiyməti isə 0,1 faiz artaraq 1 810,6 dollara çatıb.

Məlumata görə, COMEX-də gümüşün bir unsiyasının mart müqaviləsinin qiyməti isə 0,29% artaraq 23,06 dollar təşkil edib.



## Məşhur milyonçu pişik sahibi oldu

Amerikalı kosmetika milyonçusu Kylie Cenner fevral ayında ikinci körpəsini dünyaya gətirməyə hazırlaşır. SİA xarici mətbuata istinadən xəbər verir ki, Cenner bu yaxınlarda stresli hamiləlik prosesini asanlaşdırmaq üçün bir pişik əldə edib.



Sevgilisi, reper Trevis Skottun təşkil etdiyi konsertdə izdihamda 10 nəfər həlak olduqdan sonra Cenner tənha həyat sürməyə başlayıb.

*Ayşən Vəli*

## Şaxtalı havada baş ağrısı və spazmın səbəbləri nələrdir

"Həyatda elə bir insan yoxdur ki, baş ağrısı ilə rastlaşmasın. Baş ağrısının da 200-dən çox növü var. Əslində, beyin toxumasının özündə ağrı reseptorları yoxdur. Baş ağrısına səbəb beyin toxumasını əhatə edən strukturların, damarların, sinirlərin, əzələlərin qıcıqlanması nəticəsində baş ağrısı yaranır". Bu sözləri SİA-ya açıqlamasında həkim Xatirə Əliyeva deyib. Onun sözlərinə görə, beynəlxalq təsnifata əsasən, baş ağrılarını iki yerə bölürlər: "Birinci və ikinci baş ağrıları. Birincili baş ağrıları bədənin digər nahiyələrində hər hansı bir xəstəliklə əlaqədar olmayan ağrılardır. Bunlara misal olaraq gərginlikdən yaranan miqren aiddir. İkincili baş ağrıları isə baş və bədəndə olan xəstəliklər səbəbi ilə yaranan ağrılardır. Buna da kəllə-beyin travmaları, infeksion və psixiatrik xəstəliklər aiddir".



Həkim sözlərinə belə davam edib: "Soyuq havalarda müşahidə olunan baş ağrıları, adətən, beyin qan dövranı pozğunluğu ilə əlaqədar olur. Belə ki, havaların soyuması ilə əlaqədar damarlarda sıxılma və spazm baş verir. Bunun nəticəsində də beyin qan dövranı pozulur ki, bu da baş ağrılarına gətirib çıxarır. Bu da ən çox xroniki, ürək-damar sistemi və arterial xəstəlikləri olan insanlarda özünü büruzə verir. Ona görə də belə insanlar soyuq hava şəraitində ehtiyatlı olmalı, əgər səhhətincə cüzi dəyişiklik hiss edərlərsə, mütləq həkimə görünmələri məsləhət olunur". "Soyuq havada qrip infeksiyalarının da artımı olur. Bu zaman da kəskin baş ağrıları yaşanır. Gənclərə tövsiyəm odur ki, saçları islaq şəkildə bayıra çıxmasınlar və özlərini qorusunlar".

*Ayşən Vəli*

## ELAN

Rəhimova Səidə Qalib qızına Bakı şəhəri, Suraxanı rayonu , Hövsan qəsəbəsində yerləşən Elçin Qaramizadə adına 270 saylı tam orta məktəb tərəfindən 2000-ci ildə verilmiş attestat itdiyi üçün etibarsız sayılsın.

## Başsağlığı

Səbail rayon Gigiyena və Epidemiologiya Mərkəzinin direktoru Abasqulu İsmayılov və mərkəzin kollektivi iş yoldaşları Süreyya xanım Nəsibovaya bacısı

**Nazilə xanımın**

vaxtsız vəfatından kədərləndiklərini bildirib, dərin hüznlə başsağlığı verirlər.

***ALLAH RƏHMƏT ELƏSİN***

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az**
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
**Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

**Tiraj: 4600**